**D İ Q Q Ə T !**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 169 (6133) 26 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# "Ermənistan terrorçuluğa sponsorluq edən ölkədir"



Bax 2

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib

## Əli Əhmədov: "Sosial şəbəkələrin fəaliyyəti ilə bağlı hüquqi tənzimləmə mexanizmlərinin yaradılması zərurətdir"



"XXI əsrin texnoloji nailiyyətləri sırasında ən mühüm əhəmiyyət kəsb edən məqamlardan biri informasiya texnologiyalarının ayrıca qolu olan sosial şəbəkələrin həm cəmiyyətin, həm də insanların həyatına ciddi şəkildə daxil olmasından ibarətdir. Hazırda cəmiyyət həyatını sosial şəbəkələrdən ayrı təsəvvür etmək mümkün deyil.

Bax 6



**Lavrovun bəyanatındakı gizli mesajlar, Rusiya niyə 5 rayonu qaytarır?**

## Oktavian Andronik: "Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır"



Bax 6

Rumıniyanın bir çox qabaqcıl KİV-lərinin baş redaktoru vəzifəsində çalışmış, siyasi şərhçi, sabiq Prezident İon İliescunun müşaviri Oktavian Andronik Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışını təhlil edib. Onun fikirlərinin yer aldığı məqalə Rumıniyanın...

## YAP İcra Katibliyində videokonfrans keçirilib



Bax 7

Sentyabrın 25-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Sosial şəbəkələr: milli maraqlar, siyasi və mənəvi məsuliyyət" mövzusunda videokonfrans keçirilib. Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, XXI əsrin texnoloji nailiyyətləri sırasında ən mühüm əhəmiyyət kəsb edən məqamlardan biri informasiya texnologiyalarının ayrıca qolu...

## "Azərbaycan Prezidentinin BMT-nin səmərəliliyinin artırılması üçün konkret təkliflərlə çıxış etməsi olduqca önəmli məsələdir"



Bu gün bütün beynəlxalq təşkilatlar kimi Birləşmiş Millətlər Təşkilatı da çətin bir dövr yaşayır və məhz bu mürəkkəb dövrdə BMT-nin rəhbərliyinə gəlmiş insanlar bu təşkilatın səmərəliliyini artırmalı, xalqların təhlükəsizliyini...

Bax 8

## Ermənilər terror qruplaşmalarının Qarabağa transferini etriraf edirlər




Bax 12

Son vaxtlar müxtəlif xarici media qurumlarında Ermənistan hərbi-siyasi rəhbərliyinin ölkə ərazisinə, eləcə də işğal altındakı Qarabağa Yaxın Şərq ölkələrinə bağlı olan müxtəlif silahlı qruplaşmaları, o cümlədən terror təşkilatlarına məxsus silahı dəstələrin transferləri ilə bağlı müxtəlif mənbələrə və faktlara əsaslanan...

**Boloşevik, yoxsa quldurbaşı?**



Bax 13

**Lənkəranda avtomobil yandı, 20 ton meyvə məhv oldu**



**Bakıda dəhşətli qətl törədən şəxs tutulub**



# “Ermənistan terrorçuluğa sponsorluq edən ölkədir”

## *Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib*

***Sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatları keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumi debatlarda videoformatda çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Ermənistan isə təqribən 30 ildir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir. İşğalçı dövlət olan Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır:***



## *“İşğalçı dövlət olan Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır”*

Cənab Sədr,

Cənab Baş katib, Hörmətli dövlət və hökumət başçıları.

Mən BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri cənab Volkan Bozkırı bu vəzifəyə seçilməsi münasibətilə təbrik edirəm. Qardaş Türkiyənin nümayəndəsinin belə mötəbər vəzifəyə seçilməsi bizi məmnun etdi. Sizi əmin etmək istəyirəm ki, bu məsuliyyətli və şərəfli işinizdə Azərbaycan sizi dəstəkləməkdən ötrü səylərini əsirgəməyəcək.

Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinə əsasən, “sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan isə sülh mümkün deyil”. Dayanıqlı beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi üçün işğala son qoyulmalıdır. Beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilməlidir.

Azərbaycan ərazisinin təqribən 20 faizi 30 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan BMT Nizamnaməsini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi güc tətbiq etmiş, Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal etmişdir. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Ermənistan işğal etdiyi ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir. Bütün azərbaycanlı əhali işğal edilmiş ərazilərdən qovulmuşdur. Ermənistan azərbaycanlı mülki şəxslərə qarşı bir sıra müharibə və insanlıq əleyhinə cinayətlər törətmişdir. Torpaqlarımızın işğalına görə məsuliyyətdən yayınmaq məqsədilə Ermənistan həmin ərazilərdə cinayətkar, terrorçu, qondarma rejim yaratmışdır.

1992-ci ildə Ermənistan Xocalı soyqırımını törətmişdir ki, onun nəticəsində Xocalının 106-sı qadın və 63-ü uşaq olmaqla 613 dinc sakini qətlə yetirilmişdir. Ondan artıq ölkə Xocalı soyqırımını tanımışdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Bugünkü Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni miras dağıdılmış və talan edilmişdir. Ermənistan işğal edilmiş ərazilərimizdə də Azərbaycanın tarixi və dini abidələrini dağıtmışdır. Məqsəd isə orada azərbaycanlıların bütün izlərini silməkdir.

Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Ermənistan isə təqribən 30 ildir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir. İşğalçı dövlət olan Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır.

Beynəlxalq hüquq normalarını kobud şəkildə pozan Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasəti aparır. Azərbaycan da daxil olmaqla, beynəlxalq ictimaiyyətin diqqətinin Beyrutdakı partlayışın fəsadlarının aradan qaldırılmasına yönəldiyi bir vaxtda, Ermənistan vəziyyətdən sui-istifadə edərək Azərbaycanın işğal olunmuş ərazilərinə erməni əsilli livanlıları yerləşdirməklə məşğuldur.

Qeyri-qanuni məşkunlaşdırma 1949-cu ilin Cenevrə Konvensiyası daxil olmaqla, beynəlxalq hüququn ciddi pozulmasıdır. Bu, müharibə cinayətidir. Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırmanın hüquqi qüvvəsi ola bilməz.

Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz olaraq təbii ehtiyatları istismar edir və süni ekoloji böhran yaratmaq məqsədilə su ehtiyatlarından istifadə edir. Azərbaycanın işğal altında olan ərazilərində qızıl və digər qiymətli metal və minerallar hasil edən Ermənistan onları beynəlxalq bazarlara ixrac edir. Bu, qanunsuz biznes fəaliyyəti və çirkli pulların yuyulması sxemidir.

Azərbaycanın təbii ehtiyatlarını qanunsuz istismar edən beynəlxalq şirkətlər qeyri-qanuni fəaliyyətlərini dərhal dayandırmadıqları halda onlar hüquqi məsuliyyətlə üzləşəcəklər. Azərbaycan işğal edilmiş ərazilərimizdə təbii ehtiyatlarımızın qanunsuz istismarı ilə məşğul olan şəxs və şirkətlərə qarşı artıq hüquqi addımlar atmağa başlayıb.

Ermənistan təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyu mülki vətəndaşları məqsədyönlü şəkildə hədəfə alır və təxribatlar törədir.

2016-cı ilin aprel ayında Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücum həyata keçirmişdir. Həmin hücum nəticəsində biri uşaq olmaqla, 6 dinc sakin qətlə yetirilmiş, 26 mülki vətəndaş isə yaralanmışdır. Azərbaycan Silahlı Qüvvələri əks-hücum tədbirləri həyata keçirmiş və işğal olunmuş torpaqların bir hissəsini azad etmişdir. 2017-ci ildə Ermənistanın məqsədyönlü hücumu nəticəsində 2 yaşlı Zəhra Quliyevə və onun nənəsi qətlə yetirilmişdir. 2020-ci il iyulun 12-də Ermənistan dövlət sərhədi istiqamətində növbəti təxribata əl atmışdır. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə tutulması nəticəsində hərbçilərimiz və 76 yaşlı mülki vətəndaşımız həlak olmuş, mülki infrastruktura isə ciddi zərər dəymişdir.

Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Bununla yanaşı, onlar Ermənistanda artmaqda olan iqtisadi-sosial problemlərdən xalqın diqqətini yayındırmağa çalışdılar.

Lakin Azərbaycanın cavabı qətiyyətli oldu və Ermənistan heç bir məqsədinə nail ola bilmədi. Ermənistan növbəti dəfə hərbi məğlubiyyətə uğradı. Ermənistan hərbi dəstək üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etməklə məğlubiyyətini etiraf etmiş oldu.

Bu yaxınlarda erməni diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. 2020-ci il avqustun 23-də həmin dəstənin başçısı azərbaycanlı hərbçilər tərəfindən yaxalanmışdır. O, dəstənin azərbaycanlı hərbçi və mülki vətəndaşlara qarşı terror aktlarının planlaşdırdığını etiraf etmişdir.

Ermənistan hökuməti Azərbaycan tərəfinin əsirlərin “hamının-hamıya” prinsipi əsasında mübadiləsi təklifini rədd etmişdir. Azərbaycanlı mülki vətəndaşlar Dilqəm Əsgərov və Şahbaz Quliyev işğal altındakı ərazilərdə valideynlərinin məzarlarını ziyarət edərkən əsir götürülmüş və işgəncəyə məruz qalmışlar. Onlar 6 ildən çoxdur ki, əsirlikdədirlər.

Cari ilin mart ayında Azərbaycanın işğal olunmuş torpaqlarında təşkil edilmiş qondarma “seçkilər” növbəti təxribat idi. Həmin dırnaqarası “seçkilər” əvvəlkilər kimi, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlığı Təşkilatı, Avropa İttifaqı, Avropa Parlamenti və digərləri tərəfindən kəskin şəkildə qınanıldı və rədd edildi.

*Ardı Səh. 3*

# “Ermənistan terrorçuluğa sponsorluq edən ölkədir”

## Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib

Əvvəli-Səh-2

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir. Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun “Qarabağ Ermənistandır” bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Onun qəbuledilməz “yeddi şərti” tərəfimizdən rədd edilmişdir. Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır.

Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Ermənistanın müdafiə naziri “yeni ərazilər uğrunda yeni müharibəyə” çağırır. Ermənistan Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna - Mingəçevir su anbarı və Bakının yaxınlığında yerləşən dünyanın ən iri neft-qaz terminallarından biri olan və onlarla dövlətin enerji təhlükəsizliyini təmin edən Səngəçal terminalına zərbə endirməklə hədələyir.

Ermənistan müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb edir, onları Azərbaycana qarşı istifadə edir. Ermənistan terrorçuluğa sponsorluq edən ölkədir. Ermənistan Azərbaycana qarşı 30-dan artıq terror aktı törədib. Bizdə erməni ASALA terror təşkilatının işğal edilmiş ərazilərimizdə olması ilə bağlı etibarlı məlumatlar var.

Erməni terrorçuları 24 türk diplomatını qətlə yetirib. Paris şəhərinin Orli hava limanında terror aktı törədərək müxtəlif ölkələrin vətəndaşlarını qətlə yetirən ASALA terror təşkilatının Varujan Karapetyan adlı üzvü daha sonra Ermənistana ekstradisiya olunmuş və Ermənistan prezidenti tərəfindən əfv edilmişdir. Həmin terrorçu Ermənistanda qəhrəman kimi qəbul edilir.

Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və “Azərbaycanofob” fikirlər əks olunub.

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde “milli qəhrəmana” çevrilib. İkinci Dünya müharibəsindən sonra o, həbs olunaraq 25 illik azadlıqdan məhrum edilmiş və həbsxanada ölmüşdür. Ermənistanın paytaxtının mərkəzində Njdenin xatirəsinə 6 metrlik abidə ucaldılıb. ASALA kimi bir sıra digər terror təşkilatlarının üzvləri də bu ölkədə şöhrətləndirilir.

Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti heç bir nəticə verməmişdir. Danışıqlar imitasiya naminə aparılmamalı, nəticəyönümlü və məzmunlu olmalıdır.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələri - Rusiya, Fransa və ABŞ prezidentlərinin bəyanatlarında status-kvonun qəbuledilməz olduğu vurğulanmışdır. Biz həmin bəyanatları alqışlayırıq, lakin bəyanatlar kifayət etmir. Bizim real addımlara ehtiyacımız var.

Otuz ilə yaxın danışıqlar prosesində iştirakımız sülhə sadiqliyimizin bariz nümunəsidir. ATƏT-in Minsk qrupunun bütün 11 üzvü prosesdə fəal iştirak etməlidir.

BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinə əsasən, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının yenilənmiş zaman qrafiki tərtib edilməlidir. BMT-nin müvafiq təsisatları BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına və azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına töhfə verməlidir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur. Həmin qətnamələr icra edilənə qədər qüvvədədir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması isə qəbuledilməzdir.

Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir. Dağlıq Qarabağ qədim və tarixi Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır!

Biz Ermənistana artmaqda olan silah təchizatından ciddi narahatıq. Xüsusilə də Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan tərəfindən törədilmiş hərbi təxribatdan sonra. Dövlət sərhədindəki toqquşmaların qaynar fazası iyulun 16-da sona çatmışdır. Növbəti gün - iyulun 17-dən etibarən sentyabr ayına qədər biz hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşınmasının şahidi olduq. Ermənistanın dünyanın ən yoxsul ölkələrindən biri olduğunu və silahlara milyardlarla dollar xərcləmək imkanına malik olmadığını nəzərə alsaq, silahların ona pulsuz verildiyi qənaətinə gələ bilərik.

Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada biz bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq.

Azərbaycana qarşı təcavüz səbəbindən Ermənistan dərin demoqrafik, sosial və iqtisadi böhranla qarşılaşmaqda davam edir. Ermənistanda iki il bundan əvvəl rejim dəyişikliyi baş vermişdir, lakin uğursuz dövlətin faşist ideologiyası dəyişməz olaraq qalmışdır.

Ermənistanda insan hüquqları geniş şəkildə pozulur. Hakimlər təzyiq və şantaja məruz qalır, jurnalistlər, müxalifət fəalları və siyasi opponentlər despotik rejim tərəfindən həbs edilir. Ermənistanda faktiki olaraq diktatura qurulub.

Ölkənin iki sabiq prezidentinə qarşı cinayət işləri açılıb. Toxunulmazlığa sahib olmaqlarına baxmayaraq, parlament deputatları saxlanılır.

Erməni jurnalist və siyasətçi Mher Yeqizaryan 2019-cu ilin yanvar ayında həbsxanada elan etdiyi aclıq nəticəsində ölmüşdür. Lakin vəzifələri dünyada demokratiya və insan hüquqlarının müşahidə edilməsindən ibarət olan beynəlxalq təşkilatlar buna reaksiya verməmişlər. “Human Rights Watch”, “Amnesty International”, “Freedom House” və digərləri Ermənistandakı despotik rejimin zorakı və qeyri-insani hərəkətlərinə göz yumurlar. Buna səbəb dünyada insan haqları ilə məşğul olan bir çox dırnaqarası qeyri-hökumət təşkilatlarına sponsorluq edən Sorosun Paşinyan rejimini də maliyyələşdirməsi və dəstəkləməsi ola bilər.

Bu ölkədə siyasi münasibətlər böhran həddinə çatmışdır. Ölkə 20 ildən artıq idi ki, səhra komandirləri tərəfindən idarə olunurdu. Hazırkı siyasi rəhbərlik isə əvvəlki rejimlərin təcrübəsini davam etdirir. Azərbaycana qarşı hərbi təcavüzün nəticələri aradan qaldırılmayana qədər Ermənistan inkişaf perspektivlərindən məhrum qalacaqdır.

Azərbaycan tərəfindən irəli sürülmüş və BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr olunmuş Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünə qarşı çıxış edən yeganə dövlət Ermənistan olmuşdur. Halbuki Ermənistanda koronavirusla bağlı vəziyyət çox acınacaqlıdır. Ermənistan bu təşəbbüsün əleyhinə yalnız onun Azərbaycan tərəfindən irəli sürüldüyünə görə çıxış etmişdir. Belə bir təşəbbüsə etiraz irrasional düşüncənin məhsuludur. Bu, Ermənistanda hökm sürən və hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiyanın növbəti təzahürüdür. Ermənistanda gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır.

> “Ermənistan müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb edir, onları Azərbaycana qarşı istifadə edir”

Ermənistanın işğalının səbəb olduğu çətinliklərə baxmayaraq, Azərbaycan sabit, müasir, demokratik və multikultural dövlət yaratmağa müvəffəq olmuşdur. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir. Bir neçə ay əvvəl biz geniş siyasi dialoq təşəbbüsünü başlatmışıq. Bütün əsas siyasi partiyalar həmin təşəbbüsü dəstəkləyib. Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafına xidmət edəcək.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul 3 dəfə artmışdır. Ötən 17 il ərzində Azərbaycanda yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Son 17 ildə ölkəmizdə 3700-dən artıq məktəb yenidən tikilmiş və ya əsaslı təmir edilmişdir. Ölkəmizdə savadlılıq səviyyəsi 100 faizə yaxındır. “Dayanıqlı İnkişaf Məqsədləri”nin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. “2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı”nda yer almış “Dayanıqlı İnkişaf Hədəfləri İndeksi”nə görə, Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir, Avrasiyanın mühüm və etibarlı nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Biz Bakı-Tbilisi-Qars dəmir yolu və 25 milyon ton yükaşırma qabiliyyətinə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanını istifadəyə vermişik. Davos İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi “Qlobal Rəqabətlilik İndeksi”nə görə Azərbaycan dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 141 ölkə arasında 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanı xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyətinə görə 27-ci yerdədir.

Azərbaycan beynəlxalq kosmik klubun üzvüdür. Bizim 3 peykimiz var - ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi üçün. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Biz iqlim dəyişikliyi səbəbindən yaranmış içməli su qıtlığı probleminin həlli üçün səmərəli tədbirlər həyata keçiririk. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili - 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Azərbaycanda elektrik enerjisinin istehsalı üçün ekoloji cəhətdən təmiz təbii qaz və hidroelektrik enerji stansiyalarından istifadə olunur.

Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. Biz dünyaya dözümlülük və birgəyaşayış nümunəsini təqdim edirik. 2008-ci ildə Azərbaycan tərəfindən başladılmış “Bakı Prosesi” müsəlman dünyası və Avropa arasında dialoq və əməkdaşlığın möhkəmləndirilməsi məqsədini daşıyır, həmçinin BMT tərəfindən dəstəklənir. İki ildən bir Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə “mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma” kimi tanınmışdır.

2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanda keçirilmişdir. Bundan əlavə, Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarına və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Həmin idman yarışları da mədəniyyətlərarası dialoqa mühüm töhfə olmuşdur. 2016-cı ildə Roma Papası Azərbaycana səfər etmişdir. Bu ilin fevral ayında mənim Vatikana səfərim baş tutmuş və orada Papa Fransisklə görüşüm olmuşdur. Görüş zamanı Papa Fransisk Azərbaycanı “əsl tolerantlıq nümunəsi” adlandırmışdır.

Azərbaycan dini abidələrin - məscid, kilsə və sinaqoqların bərpasına çox böyük önəm verir. Biz müxtəlif ölkələrdə belə dini və tarixi abidələrin bərpası ilə bağlı birgə layihələr həyata keçirmişik.

Ardı Səh. 4

# "Ermənistan terrorçuluğa sponsorluq edən ölkədir"

## *Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib*

Əvvəli-Səh-3

Koronavirus pandemiyası dünyadakı vəziyyəti kökündən dəyişmiş, nəticədə yeni reallıqlar meydana gəlmişdir. İlkin olaraq virusun inkişafda olan ölkələrə təsir edəcəyi gözlənilirdi. Lakin pandemiya inkişaf etmiş ölkələrə də ciddi təsir etmişdir. Bu, virusun sərhəd tanımadığını bir daha sübut edir. Biz pandemiyanın öhdəsindən yalnız qarşılıqlı dəstək və birgə səylərlə gələ bilərik.

Azərbaycan virusun yayılmasının qarşısını almaq üçün zamanında zəruri addımlar atmışdır. Azərbaycan tərəfindən "Minilliyin İnkişaf Məqsədləri"nə nail olunması və "Dayanıqlı İnkişaf Məqsədləri" istiqamətində əldə edilmiş tərəqqi ona pandemiya ilə səmərəli mübarizə aparmağa imkan vermişdir. Azərbaycanda səhiyyə infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmiş və yenidən qurulmuşdur, son 17 ildə 700-ə yaxın xəstəxana yenidən tikilmiş və ya əsaslı təmir edilmişdir.

Görülmüş tədbirlər nəticəsində ölkədə COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Pandemiyanın iqtisadi çətinliklərinə baxmayaraq, vətəndaşlarımızın həyatı və sağlamlığı bizim üçün prioritet təşkil edir. İqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlılığının təmin olunması, habelə işsizliklə bağlı məsələlərin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz iki bərabər tranşla Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. İkinci tranş Qoşulmama Hərəkatına üzv dövlətlər üçün nəzərdə tutulub. Azərbaycan koronavirusa bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Azərbaycan Respublikası 2016-cı ildə 120 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş XVIII Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür. Zirvə toplantısındakı çıxışımda qeyd etdiyim kimi, Azərbaycan Qoşulmama Hərəkatının üzvlərinin mənafelərinin qorunması naminə əlindən gələni edəcəkdir. Azərbaycan ədaləti və beynəlxalq hüququ müdafiə edəcəkdir.

Təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusa qarşı videoformatda Fövqəladə Zirvə görüşü keçirildi. Mən Zirvə görüşündə Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

Hesab edirəm ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir.

*"Bizdə erməni ASALA terror təşkilatının işğal edilmiş ərazilərimizdə olması ilə bağlı etibarlı məlumatlar var"*

Beynəlxalq sülh və təhlükəsizlik, pandemiyanın dünya dövlətlərinə təsiri ölkələr arasında həmrəylik tələb edir. Bu mənada mən bir neçə təklif irəli sürmək istəyirəm:

- Pandemiyadan sonrakı dövrdə beynəlxalq təşkilatlar çərçivəsində islahatların aparılması vacibdir və bu, zamanın tələbədir. Bu baxımdan BMT-nin qlobal səviyyədə rolunun və nüfuzunun artırılmasına, onun müasir dövrün çağırışlarına daha adekvat cavab verməkimkanına xüsusi diqqət yetirilməlidir.

- Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması BMT-nin nüfuzunu sarsıdır. Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizmləri yaradılmalıdır.

- Pandemiya dövründə qaçqın və məcburi köçkünlər ən həssas qrupa çevrilmişlər. Həmin həssas qrupa daxil olanların təhlükəsiz qaydada və ləyaqətli şəkildə doğma torpaqlarına qaytarılması məsələsinin aktuallığı artır.

- Vaksinin əlçatanlığı və ədalətli paylanılmasının təmin edilməsi əhəmiyyətli məsələdir və ən az inkişaf etmiş ölkələr onu pulsuz əldə etməlidir. Bu baxımdan burada əlavə nəzarət mexanizmləri yaradılmalıdır.

- Müxtəlif ölkələr tərəfindən "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasına pandemiyanın mənfi təsirinin əhatə dairəsi diqqətlə təhlil edilməli və həll yolları müəyyən olunmalıdır.

Diqqətinizə görə sağ olun.

# "Kommersant" Azərbaycan Prezidentinin BMT-dəki çıxışını "olduqca kəskin" adlandırıb




***"Kommersant" qəzeti postsovet ölkələrindən olan prezidentlərin BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasdakı çıxışlarından seçmələr dərc edib.***

AZƏRTAC xəbər verir ki, qəzet Azərbaycan Prezidentinin çıxışından bir hissəni öz səhifəsində yerləşdirib. Nəşr Azərbaycan dövlətinin başçısının çıxışını "olduqca kəskin" adlandırıb. "O, nitqinin birinci hissəsində Qoşulmama Hərəkatı Təşkilatına üzv ölkələrin adından bəyanat verib. Belə ki, siyasətçi BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması və nüfuzunun möhkəmləndirilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırıb. Prezident İlham Əliyev deyib: "Qoşulmama Hərəkatı artmaqda olan, BMT Nizamnaməsini və beynəlxalq hüququ sarsıdan, birtərəflilik və birtərəfli tədbirlərdən istifadə halları ilə bağlı ciddi narahatlığını vurğulayır". Görünür, o, həmçinin iqtisadi sanksiyaların tətbiqini də nəzərdə tutur", - deyə qəzet yazır.

Prezident İlham Əliyevin öz çıxışının ikinci hissəsində fikirlərinin tamamilə Ermənistanın tənqidi üzərində cəmləşdirdiyini qeyd edən qəzet dövlət başçısının çıxışından bir hissəni dərc edib. "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir", - deyə Prezident bəyan edib. "Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir". Digər ittihamlar da səsləndirilib: "Ermənistan Xocalı soyqırımını (1992-ci il fevralın 26-na keçən gecə Xocalı şəhərinin sakinlərinin kütləvi qırğını - "Kommersant") törətmişdir"; "Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edib"; "Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir", "Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür". Azərbaycan lideri Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır" sözlərini yada salaraq qeyd edib ki, onun bəyanatı danışıqlar prosesinə ciddi zərbədir". Sonda Prezident deyib: "Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir".

# Macarıstanlı ekspert: "BMT Baş Assambleyasının ümumi debatlarında Bakı regional təhlükəsizliyin başlıca məsələlərinə toxunub"



***Ermənistan dərk etməlidir ki, onun tərəfindən Azərbaycan ərazilərinin işğalı dünyada dəstək tapmır və heç vaxt tapmayacaq. AZƏRTAC xəbər verir ki, Macarıstanın Vesprem şəhərindəki Pannon Universitetinin "Dövlət və hüquq" kafedrasının əməkdaşı Peter Tyukodi bu haqda fikirlərini agentliyin müxbiri ilə söhbətində BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını şərh edərkən bildirib.***

Ekspert deyib: "Heç bir dövlət təcavüz, işğal və zəbt edilmiş torpaqların məskunlaşdırılması kimi qanunsuz hərəkətlərin nəticələrinin legitimləşdirilməsinə və beynəlxalq birlik tərəfindən tanınmasına ümid edə bilməz. Mənim ölkəm olan Macarıstanın İsraillə çox səmimi münasibətləri mövcuddur. Lakin bütün bunlara baxmayaraq, bizim israilli dostlarımız işğal edilmiş Fələstin ərazilərində yaşayış məskənlərinin yaradılmasının biz tərəfdən tanınmasını və dəstəklənməsini gözləməsinlər. İsraillə müqayisədə dünyada qat-qat az dostu olan Ermənistan haqqında isə danışmağa dəyməz".

Bununla yanaşı, Tyukodi xatırladıb ki, Ermənistan ilə Macarıstan arasında hətta diplomatik münasibətlər belə yoxdur. "Bu münasibətlər 2012-ci ildə - Budapeşt və Bakı Azərbaycan vətəndaşının Vətənə tamamilə qanuni ekstradisiyasını həyata keçirdikdən sonra Ermənistan tərəfindən birtərəfli qaydada və kifayət qədər isterik formada kəsilib. Bu addımdan sonra Ermənistanda bizim tərəfimizdən azacıq simpatiyaya necə ümid edə bilərlər", - deyə həmsöhbətimiz istehza ilə vurğulayıb.

Ekspert deyib: "Biz tamamilə Bakının tərəfindəyik. Prezidentin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarındakı çıxışında ifadə etdiyi mövqe təkcə Budapeştin deyil, həm də bütün dünya birliyinin mövqeyi ilə tamamilə üst-üstə düşür".

# İlham Əliyev: “Bütün məsuliyyət Ermənistanın üzərindədir”

*Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib*



***“Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik”***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib. AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının xüsusi nümayəndəsini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşması məsələsi Azərbaycan tərəfindən bir çox beynəlxalq təşkilatlarda artıq qaldırılıb. Bu, beynəlxalq hüquqla kobud şəkildə ziddiyyət təşkil edir:

-Xoş gəlmisiniz, sizi görməyə çox şadam. Bir neçə aydan sonra siz qayıtmısınız, əlbəttə ki, bu, pandemiyaya görə olmuşdur. Lakin karantin rejiminin yüngülləşdirilməsindən sonra sizin bizi ziyarət etməyiniz məni məmnun edir.

Keçən dəfə fevral ayındakı görüşümüzdən bəri regionumuzda bir çox şey dəyişib. Əfsuslar olsun ki, region daha təhlükəsiz bir məkana çevrilməyib. Təəssüf ki, vəziyyət mənfi məcraya doğru gedir. Bu da əsasən Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına görə baş verir. Ən təcavüzkar addım Ermənistan tərəfindən iyulun 12-də atılmışdır. Onlar bizim hərbi mövqeləri və kəndlərimizi atəşə tutmaq üçün artilleriyadan istifadə etmişlər. Bunun nəticəsində hərbi qulluqçular arasında itkilər olmuşdur və bir mülki şəxs də öldürülmüşdür. Ermənistanla dövlət sərhədinə yaxın kəndlərdə bir çox evlər dardmadığın edilmişdir. Bundan əvvəl yenə də Ermənistan və Azərbaycan arasında dövlət sərhədində Ermənistanın hərbi təxribatları müntəzəm xarakter daşıyırdı. Lakin budəfəki kimi təcavüzkar formada olmamışdır.

Bildiyiniz kimi, bir müddət əvvəl sərhəddən ordumuz çıxarılmışdır və indi Ermənistanla dövlət sərhədinin böyük bir hissəsi sərhəd xidməti tərəfindən mühafizə olunur. Bu, bizim Ermənistanla dövlət sərhədində heç bir hərbi niyyətlərimizin olmadığını göstərir. Ola bilsin ki, bu, onlara yanlış bir mesaj idi. Onlar bizə hücum edə biləcəklərini, dövlət sərhədini keçə biləcəklərini və yeni əraziləri işğal edə biləcəklərini düşündülər. Bu, Ermənistanın müdafiə nazirinin bəyanatına müvafiqdir. O, bu bəyanatı Amerika Birləşmiş Ştatlarında olarkən vermişdir və demişdir ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə başlayacaq. Bu, Ermənistanın təcavüzkar davranışının davam etməsini aydın nümayiş etdirir. İyulda hücumların məqsədi, dediyim kimi, əsasən Azərbaycanın yeni ərazilərini işğal etmək və sonra danışıqlar masasında daha güclü mövqeyə malik olmaq idi. İkinci səbəb Ermənistan əhalisinin diqqətini daxili problem və çətinliklərdən yayındırmaq idi. Növbəti səbəb, zənnimcə, onlar münaqişəyə üçüncü tərəfləri cəlb etmək istəyirdilər. Məğlub olduqdan dərhal sonra onlar yardım üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciət etdilər.

Səbəblərdən biri də danışıqlar prosesini pozmaq üçün idi. Bəlkə də başqa səbəblər var idi, lakin düşünürəm ki, bunlar əsas səbəblər idi. Onlar məqsədlərinə nail ola bilmədilər. Onlar yalnız bir məqsədə nail oldular, bu da danışıqların dayanmasıdır. Bütün məsuliyyət Ermənistanın üzərindədir. Onlar danışıqları aparmaq istəmədiklərini nümayiş etdirdilər. İşğal olunmuş ərazilərdə, Xankəndidə Ermənistanın baş nazirinin “Qarabağ Ermənistandır” bəyanatı faktiki olaraq Ermənistanın danışıqları tərk etməsini nümayiş etdirirdi. Çünki əks halda o, bu qəbuledilməz və yanlış bəyanatı səsləndirməkdən çəkinərdi.

Onların danışıqlar prosesini bilərəkdən pozmasının daha bir göstəricisi Dağlıq Qarabağdan olan separatçıları danışıqlar prosesinə cəlb etmək üçün ardıcıl səylər göstərməsi idi. Bu da tərəfimizdən dərhal rədd edilmişdir və Minsk qrupunun həmsədrləri tərəfindən dəstəklənməmişdir. Başqa sözlə, onlar artıq uzun illərdir ki, mövcud olan danışıqların formatını dəyişmək istəyirdilər. Bildiyiniz kimi, iyul təxribatlarından sonra, avqust ayında onlar təmas xəttinə diversiya qrupunu göndərmişdi və bu diversiya qrupunun başçısı bizim hərbi qulluqçular tərəfindən yaxalanmışdır. O, etiraf etdi və ifadə verdi ki, o və onun dəstəsi mülki əhaliyə hücum etmək, terror aktlarını törətmək və hərbi qulluqçularımıza hücum etmək üçün göndərilmişdir. Bu, onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Onu da göstərir ki, Ermənistan müharibəyə hazırlaşır. Bunun başqa bir göstəricisi odur ki, onlar könüllülərdən ibarət qoşun yaradıldığını elan ediblər və bəyanatlara əsasən, bu dəstələr on minlərlə adamdan ibarət olacaq. Əgər Ermənistan bəzən bəyan etdikləri kimi sülh istəyirsə, əgər onlar danışıqlar istəyirlərsə, buna nə ehtiyac var? Onların bu yalan və gülünc bəyanatlar verməsinə və praktiki addımlar atmasına nə ehtiyac var? On minlərlə insandan ibarət könüllü qoşunun bir məqsədi var - Azərbaycana hücum etmək. Onlar bu könüllü qoşunun tərkibinə yaşlı insanları və hətta qadınları daxil edirlər. Onlar işğal olunmuş ərazilərdə qondarma hərbi təlimlər təşkil edirlər ki, bu da bizə qarşı daha bir təxribatdır.

Sözsüz ki, Azərbaycanın qədim tarixi şəhəri olan Şuşada cinayətkar xunta rejiminin qondarma liderinin dırnaqarası andiçmə mərasimini təşkil etmək qərarı onların qəsdən etdiyi daha bir təxribatdır. Siz, həmçinin bilirsiniz ki, ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşması məsələsi Azərbaycan tərəfindən bir çox beynəlxalq təşkilatlarda artıq qaldırılıb. Bu, beynəlxalq hüquqla kobud şəkildə ziddiyyət təşkil edir. Bu, Cenevrə Konvensiyasının pozulmasıdır və bu, cinayətdir. Onlar erməniləri Livandan Şuşaya, digər işğal olunmuş ərazilərə köçürürlər. Onlar bunu nümayiş etdirirlər, televiziya vasitəsilə göstərirlər, internetdə göstərirlər. Faktiki olaraq, beynəlxalq hüquq normalarına tamamilə məhəl qoymurlar və cinayət törədirlər. Onların bu cür davranmaq imkanında olmasının səbəbi ondan ibarətdir ki, onları dayandıran yoxdur. Minsk qrupunun həmsədrləri onları dayandırmır. Minsk qrupunun bəyanatları birbaşa ünvanı olmayan bəyanatlardır. Çünki Azərbaycan heç bir təxribatçı addım atmayıb. Biz dövlət sərhədində onlara hücum etməmişik, diversiya qrupu göndərməmişik, könüllü qoşunun yaradılmasını elan etməmişik, heç bir başqa təxribat törətməmişik. Bütün təxribatlar Ermənistan tərəfindən törədilir və onlar bunu qəsdən edirlər, bunu nümayiş etdirirlər. Onlara beynəlxalq təzyiqin olmaması, - mən bunu Minsk qrupunun həmsədrləri ilə görüşlərdə dəfələrlə qaldırmışam, - çox təhlükəli addımlara gətirib çıxarır ki, bunun da gözlənilməz nəticələri ola bilər.

Bizdə başqa bir məlumat var. Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm.

Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaar:

-Təşəkkür edirəm, cənab Prezident. Mən bir neçə aydan sonra yenidən Bakıda olmaqdan çox şadam. Siz də qeyd etdiyiniz kimi, vəziyyət dəyişib. Son aylarda narahatlıq doğuran çox hadisələr baş verib. Mənim bu gün burada olmağımın xüsusi səbəbi məhz budur. Bilirsiniz ki, ali nümayəndə sizin Xarici İşlər naziri, eləcə də Ermənistanın xarici işlər naziri ilə təmasda olub. Avropa İttifaqı Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və sülhün olmağında çox maraqlıdır. Mən öz növbəmdə vəziyyətin necə olduğunu öyrənmək üçün buradayam.

# Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarındakı çıxışı Türkiyə KİV-lərinin diqqətindədir


ANASAYFA DÜNYA Tarih : 21.09.2020 - 20:32 Yorum : 0

Azerbaycan Cumhurbaşkanı Aliyev, BM Güvenlik Konseyi'nde reform çağrısında bulundu

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev Birleşmiş Milletler (BM) 75. Genel Kurulu üst düzey toplantılarında gönderdiği video mesajda BM Güvenlik Konseyi'nde reform çağrısında bulunurken, "Azerbaycan'ın işgal altındaki tüm topraklarından Ermeni silahlı kuvvetleri geri çekilmelidir" dedi.

Beğen 0 Paylaş 0 Tweetle Yorum Yap


Cumhuriyet

Aliyev: Ermenistan'a silahlar ücretsiz veriliyor

Birleşmiş Milletler (BM) 75. Genel Kurulu'nda konuşan Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, "Ermenistan'ın dünyanın en fakir ülkelerinden biri olduğu ve silahlara milyarlarca dolar harcayamayacağı düşünülürse silahların kendisine ücretsiz verildiği sonucuna varabiliriz.

İHA 25 Eylül 2020 Cuma, 10:24

Birleşmiş Milletler (BM) 75. Genel Kurulu üst düzey toplantılarında ülke liderlerinin video mesaj yoluyla konuşmaları devam ediyor. Azerbaycan Cumhurbaşkanı İlham Aliyev yaptığı konuşmada, BM 75. Genel Kurul Başkanı seçilmesi nedeniyle Volkan Bozkır'ı tebrik ederek, "Kardeş Türkiye temsilcisinin böylesine prestijli bir konuma seçilmesinden memnuniyet duyuyoruz. Azerbaycan'ın bu sorumlu ve onurlu işte size destek olmak için hiçbir çabadan kaçınmayacağına sizi temin etmek istiyorum" dedi.

"ERMENİSTAN ETNİK TEMİZLİK YAPTI"


CANLI YAYIN VİDEO GÜNDEM EKONOMİ DÜNYA SPOR ÖZEL HABER

Haberler ▸ Dünya Haberleri ▸ Azerbaycan Cumhurbaşkanı Aliyev'den BM'ye çok net Ermenistan mesajı!

Azerbaycan Cumhurbaşkanı Aliyev'den BM'ye çok net Ermenistan mesajı!

Son dakika haberleri... Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Birleşmiş Milletler (BM) 75. Genel Kurulu üst düzey toplantılarında gönderdiği video mesajda BM Güvenlik Konseyi'nde reform çağrısında bulunurken, "Azerbaycan'ın işgal altındaki tüm topraklarından Ermeni silahlı kuvvetleri geri çekilmelidir" dedi.

DÜNYA
Giriş Tarihi: 21.09.2020 23:18 ABONE OL Google News

Birleşmiş Milletler (BM) 75. Genel Kurulu üst düzey toplantıları bugün Genel Kurul sekreterliğine seçilen ilk Türk diplomat olan Volkan Bozkır'ın konuşmasıyla başladı.

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda və sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarındakı çıxışları Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılır.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyinin, A HABER, TGRT telekanallarının, "Sabah", "Cümhuriyyət", "Türkiyə", "Yeni akıt" qəzetlərinin və digər media qurumlarının yaydığı materiallarda dövlətimizin başçısının çıxışlarından bir çox məqamlar Türkiyə ictimaiyyətinə təqdim olunub.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev regionda sülhə və təhlükəsizliyə mane olan amillər barədə fikirlərini bildirib. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən danışan dövlət başçısı konkret faktlarla təcavüzkar dövləti dünya ictimaiyyəti qarşısında rəzil vəziyyətə salıb. Prezident İlham Əliyev BMT-də islahatlara ehtiyac olduğunu diqqətə çatdıraraq mühüm çağırışlar edib.

# Əli Əhmədov: "Sosial şəbəkələrin fəaliyyəti ilə bağlı hüquqi tənzimləmə mexanizmlərinin yaradılması zərurətdir"



"XXI əsrin texnoloji nailiyyətləri sırasında ən mühüm əhəmiyyət kəsb edən məqamlardan biri informasiya texnologiyalarının ayrıca qolu olan sosial şəbəkələrin həm cəmiyyətin, həm də insanların həyatına ciddi şəkildə daxil olmasından ibarətdir. Hazırda cəmiyyəti sosial şəbəkələrdən ayrı təsəvvür etmək mümkün deyil. Hər bir yeniliyin cəmiyyət həyatında daxil olarkən müsbət məqamları ilə yanaşı fəsadları da olur. Bunu sosial şəbəkələrin timsalında da görmək mümkündür" bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün YAP İcra Katibliyində "Sosial şəbəkələr: milli maraqlar, siyasi və mənəvi məsuliyyət" mövzusunda keçirilən videokonfransda deyib.

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan cəmiyyətində də sosial şəbəkələr geniş yayılıb, cəmiyyətin və insanların həyatına öz təsirini göstərməkdədir: "Araşdırmalar nəticəsində sosial şəbəkələrin inkişafı, istifadəsi ilə bağlı dünyada və Azərbaycanda iki birbirindən fərqli meyllər müşahidə olunur. Qlobal miqyasda "facebook" və "tvitter" iştirakçılarının sayı artır. Belə ki, "facebook" iştirakçılarının sayı 71 faizdən 75 faizə, "tvitter" istifadəçilərinin sayı isə 6 faizdən 6.4 fazie yüksəlib. "Youtube" və "Instagram" istifadəçilərinin sayı isə azalır. Azərbaycanda isə "facebook" və "tvitter" kimi platfarmalarda iştirakçıların sayı azalır, "Youtube" və "İnstagram" iştirakçılarının və istifadəçilərinin sayı artır. Amma istənilən halda sosial şəbəkələr həyatımıza yeni çalarlar gətirib. Onun müsbət məqamları ilə yanaşı fəsadları da var. Dünyada bu mövzuda aparılan müzakirələrdə də iki meyl var. Bir tərəfdən, sosial şəbəkələrin rolu yüksək qiymətləndirilib onun istifadəçilərinin sayı genişlənirsə, digər tərəfdən bu platformanın cəmiyyət həyatındakı fəsadları da ciddi narahatlıq doğurur. Ona görə də, mənfi halların qarşısının alınması üçün sosial şəbəkələrin fəaliyyətində hüquqi tənzimləmələrin yaradılması müzakirə olunur".

Sosial şəbəkələrin yaratdığı mənfi hallardan danışan Əli Əhmədovun fikrincə, bunların birincisi sosial platformalar vasitəsilə yalan məlumatların kifayət qədər geniş yayılması, ikincisi, ziyanlı təbliğaımn aparılması geniş imkanlar yaratması və üçüncüsü isə şəxsiyyətə qarşı mənəvi terror aparılmasıdır. Onun sözlərinə görə, belə hallara qarşı ictimai qınaq da effekt vermir. YAP Sədrinin müavini qeyd edib ki, bu xoşagəlməz halların qarşısının alınması üçün sosial şəbəkələrin fəaliyyəti ilə bağlı hüquqi tənzimləmə mexanizmlərinin yaradılması zərurətdir.

# Oktavian Andronik: "Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır"



Ruminiyanın bir çox qabaqcıl KİV-lərinin baş redaktoru vəzifəsində çalışmış, siyasi şərhçi, sabiq Prezident İon İlieskunun müşaviri Oktavian Andronik Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışını təhlil edib. Onun fikirlərinin yer aldığı məqalə Ruminiyanın nüfuzlu "Amosnews" xəbər agentliyinin saytında dərc edilib.

Siyasi şərhçi deyib ki, Prezident İlham Əliyev çıxışında Ermənistanın siyasətinin işğalçı mahiyyətini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Qeyd edib ki, Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistanın baş naziri məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbə vurub.

Məqalədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tezliklə çıxarılmasının, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinin vacibliyi bildirilir. Diqqətə çatdırılır ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Azərbaycanın işğal edilmiş ərazilərində təbii ehtiyatların qanunsuz istismar edildiyi qeyd olunan məqalədə, həmçinin nasizmin şöhrətləndirilməsinin Ermənistanın dövlət siyasəti olduğu vurğulanır.

# Rusiyalı ekspert: "Azərbaycan Prezidenti göstərdi ki, erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması BMT-nin ümdə problemidir"

Mənim fikrimcə, BMT-nin Baş Assambleyasında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında əsas məqam Birləşmiş Millətlər Təşkilatının fəaliyyətindəki problemlərlə Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi arasında qarşılıqlı əlaqənin vurğulanması olub.

Rusiyalı ekspert, "Vestnik Kavkaza" informasiya agentliyinin baş direktorunun müavini, Andrey Petrov bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib. O qeyd edib ki, Azərbaycan Prezidentinin həm münaqişənin indiki vəziyyəti, həm də onun bütün əsas mərhələləri barədə məlumat verməsi təsadüfi deyil, təəssüf ki, bu mərhələlər işğalçı ölkə olan Ermənistanın hərbi cinayətləri ilə bağlıdır. Ekspert deyib: "Prezident İlham Əliyev bir məqama diqqəti cəlb edib ki, BMT Təhlükəsizlik Şurasının qətnamə-




lərinin yerinə yetirilməməsi regiona birbaşa mənfi təsir göstərir, çünki bu halda beynəlxalq birlik faktiki olaraq cəzasız qalacağına əmin olan təcavüzkarın öz mənfur əməllərini davam etdirməsinə razılıq vermiş olur".

A.Petrovun fikrincə, Azərbaycanın beynəlxalq məkandakı strategiyasında çox mühüm dəyişiklik baş verib: indi Prezident İlham Əliyev başda olmaqla azərbaycanlı diplomatlar və siyasətçilər bildirirlər ki, Qafqazda sülhün bərqərar olması üçün cavabdeh olan təşkilatlar fəaliyyətsizdir və bu fəaliyyətsizlik həm Azərbaycan Respublikası ərazilərinin qeyri-qanuni işğalına, həm də Yerevanın bütövlükdə təcavüzkar siyasətini davam etdirməsinə kömək deməkdir. Bu siyasətin nəticəsində insan tələfatı, o cümlədən Azərbaycanın dinc əhalisi arasında tələfat hər il artır.

A.Petrov deyib: "Bu gün Bakı beynəlxalq birliyə izah edir ki, bu birliyin özünün qəbul etdiyi məcburi xarakterli sənədlərə, məsələn BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməsi üzrə praktiki addımların atılmaması Azərbaycanın əleyhinə, Cənubi Qafqazda müharibə vəziyyətinin davam etməsinə və ərazi bütövlüyü prinsipinin pozulmasına yönəlmiş addımdır".

Ekspert sonda deyib: "İlham Əliyevin haqlı olaraq qeyd etdiyi kimi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsinin digər nəticəsi BMT-nin mühüm beynəlxalq təşkilat kimi nüfuzunun azalmasıdır. Bütün bunlar bir-biri ilə qarşılıqlı bağlıdır. Təşkilat təcavüzkara şərait yaratmaqla həm Ermənistan-Azərbaycan münaqişə zonasını "qaynar vəziyyətdə" (bəziləri bunu "soyuq vəziyyət" hesab etsələr də) saxlamaqda davam edir, həm də öz nüfuzunu itirir. Ermənistan isə, törətdiyi cinayətlərə görə ondan heç bir cavab tələb edilmədiyini başa düşərək işğal edilmiş torpaqlarda istədiyini edir, bununla da BMT-nin nüfuzunu daha da azaldır. Beləliklə, Azərbaycan Prezidenti göstərib ki, erməni qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması BMT-nin ümdə problemidir. Bu problemin həlli BMT-nin indi çoxları tərəfindən sual işarəsi altına alınan əhəmiyyətini bərpa etməyə imkan verərdi. BMT-nin nüfuzlu təşkilat olması üçün o, fəaliyyətə keçməlidir".

## "Berliner Press" Azərbaycan Prezidentinin BMT Baş Assambleyasındakı çıxışıdan yazıb




Almaniyada çıxan "Berliner Press" nəşrində Prezident İlham Əliyevin BMT Baş Assambleyasının onlayn-konfrans formatında keçirilmiş 75-ci sessiyasındakı ümumi debatlarda çıxışı barədə məlumat dərc edilib. SİA xəbər verir ki, materialda Azərbaycan dövlətinin başçısının çıxışlarının əsas tezislərinə istinad edilir. Nəşrdə vurğulanır ki, İlham Əliyev öz çıxışında Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, regionda sülhə və təhlükəsizliyə təhdid yaratması, Azərbaycan ərazilərini işğal etməsi, yerli azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə, işğal edilmiş torpaqları qeyri-qanuni məskunlaşdırması, dövlət sərhədi boyunca təxribatlar törətməsi kimi məsələlərə diqqəti cəlb edib.

Materialda bildirilir ki, Azərbaycan Prezidentinin çıxışında ölkədə stabil, demokratik, etnik və dini baxımdan tolerant dövlət qurulması və onun möhkəmləndirilməsi sahələrində, həmçinin COVID-19 pandemiyasına qarşı mübarizədə qazanılmış uğurlar kimi məsələlərə diqqət yetirib.

facebook

# YAP İcra Katibliyində videokonfrans keçirilib







***Sentyabrın 25-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Sosial şəbəkələr: milli maraqlar, siyasi və mənəvi məsuliyyət" mövzusunda videokonfrans keçirilib. Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, XXI əsrin texnoloji nailiyyətləri sırasında ən mühüm əhəmiyyət kəsb edən məqamlardan biri informasiya texnologiyalarının ayrıca qolu olan sosial şəbəkələrin həm cəmiyyətin, həm də insanların həyatına ciddi şəkildə daxil olmasından ibarətdir.***

Onun fikrincə, hazırda cəmiyyət həyatını sosial şəbəkələrdən ayrı təsəvvür etmək mümkün deyil. Hər bir yeniliyin cəmiyyət həyatında daxil olarkən müsbət məqamları ilə yanaşı fəsadları da olur. Bunu sosial şəbəkələrin timsalında da görmək mümkündür.

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan cəmiyyətində də sosial şəbəkələr geniş yayılıb, cəmiyyətin və insanların həyatına öz təsirini göstərməkdədir: "Araşdırmalar nəticəsində sosial şəbəkələrin inkişafı, istifadəsi ilə bağlı dünyada və Azərbaycanda iki birbirindən fərqli meyllər müşahidə olunur. Qlobal miqyasda "facebook" və "tvitter" iştirakçılarının sayı artır. Belə ki, "facebook" iştirakçılarının sayı 71 faizdən 75 faizə, "tvitter iştirakçılarının və istifadəçilərinin sayı isə 6 faizdən 6.4 faizə yüksəlib. "Youtube" və "Instagram" istifadəçilərinin sayı isə azalır. Azərbaycanda isə "facebook" və "tvitter" kimi platfarmalarda iştirakçıların sayı azalır, "Youtube" və "İnstagram" iştirkaçılarının və istifadəçilərinin sayı artır. Amma istənilən halda sosial şəbəkələr həyatımıza yeni çalarlar gətirib. Onun müsbət məqamları ilə yanaşı fəsadları da var. Dünyada bu mövzuda aparılan müzakirələr də iki meyl var. Bir tərəfdən, sosial şəbəkələrin rolu yüksək qiymətləndirilib onun istifadəçilərinin sayı genişlənirsə, digər tərəfdən bu platformanın cəmiyyət həyatındakı fəsadları da ciddi narahatlıq doğurur. Ona görə də, mənfi halların qarşısının alınması üçün sosial şəbəkələrin fəaliyyətində hüquqi tənzimləmələrin yaradılması müzakirə olunur".

Sosial şəbəkələrin yaratdığı mənfi hallardan danışan Əli Əhmədovun fikrincə, bunların birincisi sosial platformalar vasitəsilə yalan məlumatların kifayət qədər geniş yayılması, ikincisi, ziyanlı təbliğaimn aparılması geniş imkanlar yaratması və üçüncüsü isə şəxsiyyətə qarşı mənəvi terror aparılmasıdır. Onun sözlərinə görə, belə hallara qarşı ictimai qınaq da effekt vermir. YAP Sədrinin müavini qeyd edib ki, bu xoşagəlməz halların qarşısının alınması üçün sosial şəbəkələrin fəaliyyəti ilə bağlı hüquqi tənzimləmə mexanizmlərinin yaradılması məqsədəuyğundur.

Videokonfransda çıxış edən Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sosial şəbəkələr mövzusu həmişə aktual olub. YAP İcra Katibliyinin bu mövzuda təşkil etdiyi konfransın əhəmiyyətli olduğunu deyən Əli Hüseynli tədbirdə müxtəlif siyasi partiyaların rəhbərlərinin iştirak etməsi də ölkəmizdə yeni siyasi konfiqurasiyanın formalaşdığının nümunəsidir.

Birinci vitse-spiker qeyd edib ki, demokratik cəmiyyətlərdə sosial şəbəkələrin fəaliyyətinin hüquqi cəhətdən tənzimlənməsi mürəkkəbdir. Onun sözlərinə görə, sosial şəbəkələrin fəaliyyəti ilə bağlı hüquqi tənzimləmələrlə əlaqədar məsələlər Azərbaycan qanunvericiliyində müəyyən qədər öz əksini tapır. Amma onun tətbiqi üçün müvafiq addımlar atılmalıdır.

Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı çıxışında sosial şəbəkələr vasiitəsilə yalan məlumatların, təhqir və böhtanların geniş yayıldığını bildirib. O qeyd edib ki, ona görə də bu platformanın hüquqi cəhətdən tənzimlənməsi olduqca vacibdir.

Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa da çıxış edərək sosial şəbəkələrin geniş yayılmasının qarşısıalınmaz bir proses olduğunu deyib. Onun sözlərinə görə, bəzi ölkələrdə bu platforma ciddi problemlər yaradır, digər ölkələrdə isə cəmiyyətin inkişafına böyük töhfələr verir. Ona görə də çalışmalıyıq ki, ölkəmizdə də sosial şəbəkələr cəmiyyətimizə daha çox fayda versin.

Çıxış edən Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyevisə müəyyən qrupların məqsədli şəkildə sosial şəbəkələr vasitəsilə ölkəmiz haqqında yanlış rəy formalaşdırmağa, yalan məlumatlar yaymağa çalışırlar. Ona görə də, bu cür hesabların bağlanması yolları tapılmalıdır. Eyni zamanda, rəsmi sənədlər vasitəsilə sosial şəbəkələrdən qeydiyyatdan keçmək üçün mexanizmlər tətbiq olunmalıdır. Bu mexanizmlərin tətbiqi bu platformanın yaratdığı problemlərin qarşısını xeyli dərəcədə ala bilər.

Daha sonra çıxış edən Milli Məclisin deputatı Etibar Əliyev də sosial şəbəkələrlə bağlı dünya ölkələrinin təcrübəsi, bu platformanın hüquqi tənzimləmə mexanizminin yaradılması ilə bağlı aparılan müzakirələr haqqında fikirlərini bildirib, təkliflərini irəli sürüb.

## Mübariz Qurbanlı: Ermənistanın törədəcəyi təxribata güclü şəkildə cavab veriləcəyi göz önündədir

"Ermənistanın sərhəddə törətdiyi təxribatlar işğal olunmuş ərazilərimizdə aparılması gözlənilən antiterror əməliyyatından diqqəti yayındırmaq məqsədi daşıyır".

Bu fikirləri "Yeni Tv"-nin canlı yayımında Dini Qrumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı deyib.



Onun sözlərinə görə, Ermənistan çalışır ki, müharibə başlanacağı təqdirdə, üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı prosesə cəlb olunsun: "Azərbaycanın indi apardığı siyasət çox doğrudur. Biz hərbi əməliyyatları başlaya biləcəyimizi və başlayacağımızı açıq şəkildə bəyan edirik. Yəni Ermənistanın törədəcəyi təxribata güclü şəkildə cavab veriləcəyi göz önündədir. Bu artıq söz deyil, əməldir". Ermənistan tərəfinin danışıqlara hazır olduğuna dair açıqlamalarına münasibət bildirən M.Qurbanlə bildirib: "Azərbaycan nəticəsi olan danışıqların tərəfdardır. Hazırkı status-kvo Azərbaycanı qane etmir. Bu yalnız Ermənistana sərf edə bilər. Çünki onlar ərazilərimizi işğal edərək orada yerləşiblər. Müharibə başlayarsa, bu bütövlükdə region, daha geniş vüsət alarsa dünya üçün təhlükə yaratmış olacaq. Ona görə də dünya ölkələri, beynəlxalq təşkilatlar münaqişənin həllində ədalətli mövqe nümayiş etdirməlidirlər".

## "Bakının ətrafında yerləşən yaşayış məntəqələrinin abadlığına ciddi fikir verilir"



"Azərbaycanın bütün bölgələrinin, o cümlədən paytaxt Bakının ətrafında yerləşən yaşayış məntəqələrinin abadlığına ciddi fikir verilir. Son dövrlərdə Azərbaycanın turistləri cəlb edən bir məkan kimi inkişafı yeni turist məkanlarının yaradılmasını da vacib edir". Bunu SİA-ya millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, Bakı kəndlərində yol, kommunikasiya xətlərinin yenilənməsi, yeni məktəblərin, xəstəxanaların tikilməsi, icma klublarının yaradılması daima diqqətdə idi: "Amma son dövrlər Bakı kəndlərinin o tarixdən gələn koloritinin saxlanılmasını çox vacib edir. Bunu həm həyat diqtə edir, həm də tarixən Bakı ətrafında özünün yaşayış mədəniyyəti, özünün təbiətə qovuşması ilə fərqlənən bir kolorit yaranmışdı. Cənab Prezidentin göstərişi ilə artıq Bakı kəndlərində o yaşam tərzinin saxlanılması, ona yeni elementlərin əlavə edilməsi öz əksini tapır. Bu layihələr çox uğurlu alınır. Bu bir tərəfdən insanların həyatını daha da yaxşılaşdırır, digər tərəfdən Bakının mərkəzinə axını əks istiqamətə yönəldir. Üçüncü tərəfdən isə həmin o məkanlar artıq bir turist mərkəzinə də çevrilir. Xaricdə olarkən tez-tez, hətta Avropa paytaxtlarının mərkəzlərində belə kənd stilində milli koloritə uyğun olan yaşayış binalarının və yaxud da parkların, yol infrastrukturunun qorunub saxlanıldığının şahidi oluruq. Bu baxımdan Bakı kəndlərinin də yeni simasının yaradılması hamı tərəfindən müsbət qiymətləndirilir. Hesab edirəm ki, biz qısa bir zamanda bütün 30-dan çox Bakı kəndlərinin hamısında yenilənmiş sima görəcəyik".

# "Azərbaycan Prezidentinin BMT-nin səmərəliliyinin artırılması üçün konkret təkliflərlə çıxış etməsi olduqca önəmli məsələdir"



### Qısa zaman kəsiyində iki mühüm çıxış... Hansı başqa ölkə özünü bu şəkildə dünyanın ən yüksək kürsüsündən təqdim etmək qabiliyyətində olub?

Bu gün bütün beynəlxalq təşkilatlar kimi Birləşmiş Millətlər Təşkilatı da çətin bir dövr yaşayır və məhz bu mürəkkəb dövrdə BMT-nin rəhbərliyinə gəlmiş insanlar bu təşkilatın səmərəliliyini artırmalı, xalqların təhlükəsizliyini və inkişafını təmin etmək üçün konkret addımların atılmasını tələb edən siyasət aparmalıdır. Məhz buna görə Prezident İlham Əliyev həm sentyabrın 21-də, həm də 24-də çıxışında Qoşulmama Hərəkatının sədri kimi, həmçinin Azərbaycan Respublikasının Prezidenti kimi BMT-nin səmərəliliyinin artırılması üçün konkret təkliflərlə çıxış etdi.

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib.

Səməd Seyidov qeyd edib ki, təkliflər içərisində sözdən əmələ keçid fəlsəfəsinin, bəyanatlardan konkret addımlara keçmə vaxtının artıq çoxdan gəldiyinin xüsusi vurğulanması önəmlidir. Məhz buna görə Prezident İlham Əliyevin çıxışı zamanı irəli sürdüyü təkliflər içərisində BMT-nin qlobal səviyyədə nüfuzunun artırılması üçün konkret planın işlənilməsi, Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunması üçün mexanizmin yaradılması, qaçqın və köçkünlərin, yəni pandemiya dövründə ən həssas qrupa daxil olan insanların problemlərinin ilk öncə həll olunması, pandemiya dövründə ehtiyacı olan və imkanı olmayan təbəqələrə vaksinin ədalətli formada əlçatanlığının təmin olunması və dayanıqlı inkişaf məqsədlərinin bərqərar olunması üçün xüsusi səylər göstərilməsini qeyd etmək vacibdir.

Hər iki çıxışın özünəməxsus məntiqi mövcuddur. Bu məntiq yalnız Azərbaycan torpaqlarının işğalı, qaçqın və köçkünlərin yaranması, ermənilərin Azərbaycana qarşı törətdiyi cinayətlərlə və s. bu kimi məsələlərlə əhatə olunmur. Bu, sadəcə, faktların sadalanması deyil. Cənab Prezidentin çıxışı Ermənistanın faşizm ideologiyasından irəli gələn mövqeyinin, Azərbaycana qarşı aparılan siyasətin mahiyyətinin açılmasının məntiqi və fəlsəfi üslubda dünyaya təqdim olunmasını özündə ehtiva edirdi. Söhbət təkcə cinayətdən getmir, söhbət Azərbaycanofobiyadan, geniş mənada islamofobiyadan, insanlığa qarşı cinayətlərdən, yəni faşizmdən gedir. Bu ideologiyanın Ermənistanda cücərməsi, Daşnaksütyun və ASALA-nın terrorçu hərəkatları, Varujan Karapetyanın Fransada törətdiyi cinayətlər və həmin cinayətkarların azadlığa buraxılması, Ermənistana qayıtması, Ermənistanda insanlığa qarşı şovinist ideologiyanın formalaşması yolu yalnız faşizmə gətirib çıxarda bilərdi. Njdenin heykəli Ermənistanın bu gün hakimiyyətdə olan qüvvələrinin ideologiyası ilə yanaşı, Ermənistanda terrorçu ideologiyasının formalaşma tarixini göstərən nümunədir.

Bu iki çıxış və xüsusilə sentyabrın 24-də olan çıxış Ermənistanla bağlı dünyaya ciddi mesajların, məlumatların, Ermənistan tərəfdən ciddi təhlükələrin mövcud olduğu çıxışlar kimi qeydə alındı. Bu gün yuxarıda sadalanan və izah olunan terrorçu və faşist ideologiyasını özündə ehtiva edən populist yanaşmalar regionumuzda təhlükə yaradırsa, bu, bütün dünya üçün də böyük bir təhdiddir. Sivil vətəndaş obyektlərini hədəf alan, uşaqları, qocaları öldürən, torpaqları zəbt edən və yeni böyük müharibəyə hazırlaşan Ermənistan özünü də, ətrafını da, dünyanı da böyük bir müharibəyə sürükləyə bilər. Bu isə BMT tərəfindən mütləq nəzərə alınaraq qarşısı alınmalıdır. Məhz bu məsələləri cənab Prezident dünyaya çatdıraraq xüsusi qeyd etdi. Azərbaycan inkişaf etdiyi halda, əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində düşündüyü halda və ən əsası, dünyanı bürümüş COVID-19 pandemiyası ilə mübarizə şəraitində sosial proqramları həyata keçirdiyi halda, Ermənistan yenə işğaldan, yenə müharibədən və insanlara, azərbaycanlılara, müsəlmanlara nifrətdən danışır. Əminəm ki, BMT-nin bu sessiyasında tam açıqlığı ilə Ermənistanın siyasətini ifşa edən dövlətimizin başçısının çıxışı hamı üçün vacib bir məsələ kimi qiymətləndiriləcək. Onu da qeyd etmək lazımdır ki, məhz Ermənistan BMT-yə qarşı çıxaraq öz mövqeyini göstərmişdir. Baxın, o, BMT tərəfindən yekdilliklə dəstəklənən, ancaq məhz Türkiyənin nümayəndəsi olduğuna görə Volkan Bozkıra qarşı çıxmışdır. Özü pandemiya ilə mübarizə apara bilmədiyi halda, pandemiya ilə mübarizə üçün konkret təkliflər vermiş Azərbaycan Prezidentinin fikirlərinə qarşı çıxmışdır. Baxın, Ermənistan dünyaya qarşı çıxır, BMT-yə qarşı çıxır. Dünyaya qarşı çıxan dünya tərəfindən təcrid olunmalı və haqqədalət yoluna gətirilməlidir. Belə olduğu halda, həm regionda sabitlik, həm dünyada tərəqqi bərqərar olar. Cənab Prezidentin çıxışı məhz bu tərəqqiyə xidmət edir.

---



# Vüqar Rəhimzadə: "Bu gün BMT TŞ-nin qətnamələrinin reallaşdırılmasında ikili standartlar mövcuddur"

"Cənab Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasdakı çıxışı Azərbaycanın dünya birliyində yerini, qlobal proseslərdə rolunu və əhəmiyyətini nümayiş etdirdi. Eyni zamanda, dövlətimizin başçısının müasir dünyanın problemlərindən, onlardan çıxış yollarından söz açması, beynəlxalq hüququn təminatının bu günün əsas tələbi olduğunu bildirməsi bir daha Azərbaycan dövlətinin qətiyyətli mövqeyini ortaya qoydu". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, siyasi elmlər doktoru, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının (TŞ) qətnamələrinin yerinə yetirilməməsini açıq şəkildə diqqətə çatdırması bu sahədə islahatların həyata keçirilməsinin vacibliyini önə çıxardı: "Heç kəsə sirr deyil ki, bu gün BMT TŞ-nin qətnamələrinin reallaşdırılmasında ikili standartlar mövcuddur. Axı, necə olar bilər ki, Liviya ilə bağlı BMT TŞ-nin qərarı 2 saata reallaşdırılır, amma Dağlıq Qarabağla bağlı 4 qətnamə 27-28 ildir yerinə yetirilmir. Əlbəttə ki, BMT TŞ-nin qətnamələrinin icra olunmaması bu təşkilatın nüfuzuna ciddi zərbə vurur. Çox maraqlıdır ki, nəyə görə bəzi hallarda ayrı-ayrı ölkələrə qarşı qısa müddətdə tədbirlər görüldüyü halda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair BMT TŞ-nin 822, 853, 874, 884 saylı qətnamələrinin icra edilməsi istiqamətində heç bir addım atılmır? Məgər Ermənistanın işğalçı olması qeyri-müəyyəndirmi? Yoxsa, bu günə qədər Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, 1 milyondan artıq insanı qaçqın və məcburi köçkün halına salması, Xocalı soyqırımını törətməsi kimlərə məlum deyil? Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi cinayətlərin sayı o qədər çoxdur ki, artıq bu ölkəyə qarşı beynəlxalq sanksiyaların tətbiq olunmasının zamanı yetişib".

"Azərbaycan da daxil olmaqla, beynəlxalq ictimaiyyətin diqqətinin Beyrutdakı partlayışın fəsadlarının aradan qaldırılmasına yönəldiyi bir vaxtda Ermənistan vəziyyətdən sui-istifadə edərək Azərbaycanın işğal edilmiş ərazilərinə erməni əsilli livanlıları yerləşdirməklə məşğuldur" deyən Vüqar Rəhimzadə əlavə edib ki, Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırmanın hüquqi qüvvəsi ola bilməz: "Ermənistan işğal altındakı ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsini məhv edib, qanunsuz məskunlaşma siyasəti həyata keçirir, Azərbaycanın təbii sərvətlərini qeyri-qanuni istismar edir. Ermənistan müxtəlif ölkələrdən olan muzdluları və terrorçuları işğal olunmuş ərazilərimizə gətirir və onları Azərbaycana qarşı istifadə edir. Ermənistan terrorçuluğa himayədarlıq edən ölkədir. Artıq bu gün ASALA erməni terror təşkilatının işğal edilmiş ərazilərimizdə olması ilə bağlı etibarlı məlumatlar var. Eləcə də Ermənistan rəhbərliyi tərəfindən düşməncəsinə verilən Azərbaycanofob bəyanatlar və törədilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Təəssüflər olsun ki, münaqişənin sülh yolu ilə həlli missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti heç bir nəticə vermir. Eyni zamanda, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması da qəbuledilməzdir. Çünki BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsində vaxt məhdudiyyəti olmadığından həmin sənədlər icra edilənə qədər qüvvədədir. Bu mənada, həm ATƏT-in Minsk qrupu, həm də BMT Cənubi Qafqaz regionunda vəziyyətin nə qədər gərgin olduğunu görməli və beynəlxalq hüququn tələblərini yerinə yetirməlidirlər".

Vüqar Rəhimzadə vurğulayıb ki, Ermənistanın məqsədi işğal ilə bağlı status-kvonu qorumaq və zəbt etdiyi ərazilərin ilhaqına nail olmaqdır: "Ermənistanda iki il bundan öncə rejim dəyişikliyi baş verib, lakin uğursuz dövlətin faşist ideologiyası dəyişməz olaraq qalıb. Ermənistanda gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır, "Azərbaycanofobiya" və "türkfobiya" meyilləri hökumət dairələri tərəfindən süni şəkildə stimullaşdırılır. Doğrudur, dəfələrlə cənab Prezident İlham Əliyev dünyanın ən ali tribunalarından Ermənistanın işğalçılıq, faşist, antiinsani siyasətini, yeni müharibə planlarını ifşa edib, BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın təcavüzkar siyasətinə son qoymaq üçün əməli tədbirlər görməyə, işğalçı dövlətin bu hərəkətlərinə müşahidəçi qalmamağa çağırıb. Azərbaycan Prezidentinin, Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti nəticəsində bu gün Ermənistan bütün dünyada təcavüzkar, işğalçı, antidemokratik, faşizm ideologiyasına xidmət edən ölkə kimi ifşa olunur. Lakin çox təəssüflər olsun ki, belə bir faşist təbiətli işğalçı dövlətə hələ də ikili standartlı yanaşma özünü göstərir. Bu ikili standartlı yanaşma təkcə işğal məsələsində deyil, Ermənistanın daxili siyasi mühitində də müşahidə edilir. Təsəvvür edin ki, erməni jurnalist və siyasətçi Mher Yeqizaryan 2019-cu ilin yanvar ayında həbsxanada elan etdiyi aclıq nəticəsində ölmüşdü. Lakin vəzifələri dünyada demokratiya və insan hüquqlarının qorunmasından ibarət olan beynəlxalq təşkilatlar buna reaksiya vermədilər. "Human Rights Watch", "Amnesty International", "Freedom House" və digərləri Ermənistandakı despotik rejimin zorakı və qeyri-insani hərəkətlərinə göz yumurlar. Buna səbəb dünyada insan haqları ilə məşğul olan bir çox üzdəniraq qeyri-hökumət təşkilatlarına sponsorluq edən Corc Sorosun Paşinyan rejimini də maliyyələşdirməsi və dəstəkləməsidir. Sorosun Ermənistanın faktiki rəhbəri kimi Paşinyanı bütün məsələlərdə müdafiə etməsi belə bir qənaətə gəlməyə əsas yaradır ki, dünyada beynəlxalq hüquqdan da üstün olan şəxslər var. Bəlkə elə bu səbəbdəndir ki, Dağlıq Qarabağdakı terrorçu rejimin başçısı Gəncəni bombalamaqla bağlı açıqlama verir, Ermənistanda səfərbərlik elan edilir, muzdlu dəstələr yaradılır, bu ölkə sürətlə şəkildə silahlandırılır. Görünür, kimlərsə Ermənistanı yeni müharibəyə hazırlayırlar. Əgər bu gün beynəlxalq hüquq öz sözünü deməsə, beynəlxalq təşkilatlar Ermənistanın hərəkətlərinə adekvat cavab verməsələr, o zaman rəsmi Yerevan daha aqressiv addımlar atacaq və nəticədə regionda sülhə və təhlükəsizliyə təhdidlər artacaq".

## Fransalı mer: "Azərbaycan bugünkü azadlığımıza, İkinci Dünya müharibəsində Qələbəmizə böyük töhfələr verib"




İkinci Dünya müharibəsi dövründə azərbaycanlı əsgərlərin də qoşulduğu Kabertat Partizan Hərəkatının Üçüncü Qusar Polkunun yerləşdiyi bu məkanda olanda həm kədərlənir, həm də qürur duyuruq. Ona görə kədərlənirik ki, Fransanın azadlığı uğrunda mübarizə aparan əsgərlər burada həlak olublar. Sevinirik ki, onlar bugünkü azadlığımızı bizə bəxş ediblər.

Bu fikirləri əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasının 100 illiyi münasibətilə təşkil edilmiş tədbirdə iştirak edən Montoban şəhərinin meri Brijit Barej AZƏRTAC-a müsahibəsində söyləyib.

Mer bildirib ki, regionun azadlığı uğrunda döyüşən Əhmədiyyə Cəbrayılovun xatirəsi yerli sakinlər tərəfindən həmişə tutulur. Kabertat Partizan Hərəkatının Üçüncü Qusar Polkunun tərkibində döyüşmüş əsgərlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Montoban şəhərində muzey açılıb. Bu muzeydə azərbaycanlılar da daxil olmaqla, Üçüncü Qusar Polkunun bütün əsgərləri haqqında məlumatlar saxlanılır. Fransanın azadlığı uğrunda mübarizə aparan əsgərlərin, xüsusilə də azərbaycanlı döyüşçülərin unudulmaması üçün uşaqlar bu barədə məlumatlandırılmalıdırlar.

"Fransanın azadlığı uğrunda mübarizə aparmış azərbaycanlı əsgərlərin şücaəti haqqında məlumatlıyıq. Azərbaycan faşizm üzərində qələbəyə təkcə insan kapitalı ilə deyil, öz nefti ilə də töhfə verib. İkinci Dünya müharibəsində 300 mindən çox azərbaycanlı əsgər həlak olub. Azərbaycan müharibə zamanı istifadə olunan yanacağın 90 faizini təmin edib", - deyə Brijit Barej bildirib.

O deyib: "Azərbaycan bugünkü azadlığımıza, İkinci Dünya müharibəsində qələbəmizə böyük töhfələr verib. Bunu unutmaq olmaz". Ölkələrimiz arasındakı münasibətlərə toxunan mer əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib.

# “Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq!”

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasındakı çıxışı zamanı Ermənistanın işğalçılıq siyasətini, təcavüzkar mahiyyətini faktlar əsasında və mövcud reallıqlar fonunda ifşa etdi, həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Dövlətimizin başçısı BMT-ni, bütövlükdə beynəlxalq birliyi Ermənistanın işğalçı siyasətinə son qoymaq üçün konkret və qətiyyətli əməli tədbirlər görməyə, təcavüzkar dövlətin təxribatçı hərəkətlərinə seyrçi qalmamağa çağırdı”. Bunu SİA-ya “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.



Deputatın sözlərinə görə, ümumiyyətlə, Prezident İlham Əliyevin toxunduğu məsələlər təkcə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli kontekstində deyil, həm də regional və beynəlxalq təhlükəsizlik problemi baxımından mühüm aktuallığa və əhəmiyyətə malikdir: “Dövlət başçısı Azərbaycan da daxil olmaqla, beynəlxalq ictimaiyyətin diqqətinin Beyrutdakı partlayışın fəsadlarının aradan qaldırılmasına yönəldiyi bir vaxtda Ermənistanın vəziyyətdən sui-istifadə edərək ölkəmizin işğal edilmiş ərazilərinə erməni əsilli livanlıları yerləşdirməklə məşğul olmasını xüsusi olaraq diqqətə çatdırdı, qanunsuz məskunlaşdırmanın hüquqi qüvvəsinin olmadığını qətiyyətlə vurğuladı. Həqiqətən də, Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni məskunlaşdırma aparılması faktiki olaraq müharibə cinayətidir. Bu addım işğal edilmiş ərazilərdə demoqrafik strukturu dəyişdirmək, həmin ərazilərə köçürülmüş insanlardan silahlı muzdlular olaraq istifadə etmək məqsədini güdür, həmçinin dövlət sərhədimizin Tovuz rayonu istiqamətində baş vermiş hadisələr zamanı fiaskoya uğramış erməni siyasətinin növbəti təxribat və yeni hərbi avantürizmə hazırlaşmasından xəbər verir. Görünən odur ki, işğalın nəticələrini legitimləşdirmək və status-kvonu qoruyub saxlamaq niyyətində olan Ermənistanın məqsədi sülh danışıqları prosesini tamamilə fiaskoya uğratmaqdır. Ona görə də beynəlxalq ictimaiyyət, xüsusilə də ATƏT-in Minsk qrupu bu məsələyə xüsusi diqqət yetirməli, hətta işğalçı dövlətə qarşı sanksiya tələb olunmalıdır. Beynəlxalq qanunvericilik bazası və beynəlxalq hüquq normalarını kobud surətdə pozmaqdan çəkindirmək məqsədilə müxtəlif ölkələrə qarşı sanksiya tələb olunması nümunələri mövcuddur. Xüsusilə də nəzərə almaq lazımdır ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur, onlar icra edilənə qədər qüvvədədir. Hazırkı mənzərə BMT-nin nüfuzunu sarsıdır, o səbəbdən Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yaradılmalıdır. Qətnamələrin icra olunmadığı təqdirdə, sanksiya mexanizmi işə salınmalıdır.

Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı daha bir zəruri məsələni diqqətə çatdırdı. Bu, Ermənistanın işğal altındakı ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsini məhv etməsi, Azərbaycanın təbii sərvətlərini qeyri-qanuni istismar etməsidir. Uzun müddətdir ki, bu fakt mövcud olduğu halda, beynəlxalq təşkilatların məsələyə laqeyd münasibəti ciddi təəssüf doğurur. Hazırkı şəraitdə bəhs olunan hal ilə əlaqədar ATƏT-in faktaraşdırıcı missiyasının təşkil olunması zərurətdir. Çünki dövlətimizin başçısının diqqət çəkdiyi reallığa, açıqlanan faktlara biganə münasibət göstərilməsi yolverilməzdir. Loyal münasibət, eyni zamanda, Ermənistanı yeni qeyri-qanuni və cinayət əməllərinə təşviq etmək, həvəsləndirməkdir. Xüsusi olaraq nəzərə almaq lazımdır ki, ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasının, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasının və “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESKO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir. Eyni zamanda, Azərbaycanın təbii ehtiyatlarını qanunsuz istismar edən beynəlxalq şirkətlər qeyri-qanuni fəaliyyətləri də dərhal dayandırmalıdırlar. Əks halda, onlar beynəlxalq hüquq normalarının tələblərinə müvafiq surətdə hüquqi məsuliyyətlə üzləşəcəklər.

Bütövlükdə, Prezident İlham Əliyev sözügedən çıxışı zamanı Azərbaycanın qətiyyətli mövqeyini bir daha diqqətə çatdırmaqla milli maraqlarımızın qorunması, ərazi bütövlüyümüzün bərpa olunması məsələsində prinsipiallıq nümayiş etdirdi. Ümumiyyətlə, Ermənistanın məqsədinin işğal ilə bağlı cari status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaq olduğunun BMT-nin tribunasından vurğulanması xüsusi əhəmiyyətə malikdir. Dünya ictimaiyyətinin siyasi yaddaşı bir daha yeniləndi, növbəti dəfə məlum oldu ki, hazırkı şəraitdə, qeyd etdiyimiz kimi, işğalçı Ermənistana qarşı təsir və təzyiqlər gücləndirilməli, adekvat addımlar atılmalıdır. ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri - Rusiya, Fransa və ABŞ Prezidentlərinin bəyanatlarında status-kvonun qəbuledilməz olduğu vurğulansa da, yetərli deyil, çünki real addımlar atmadan münaqişənin ədalətli həllinə nail olmaq mümkün deyil. Birmənalı olaraq nəzərə almaq lazımdır ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq!”.

# Bəhruz Quliyev: “İnsanların ruhunda, varlığında və mənəvi dünyasında Vətən sevgisi olmalıdır”

“Bu gün Ermənistanda azərbaycanfobiya formalaşdırılır və Ermənistan xalqının gələcək nəsillərinə Azərbaycanla bağlı çox ciddi nifrət bəslənilir”. Bunu SİA-ya SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspertin sözlərinə görə, Ermənistan tarixən terrorçu və terrorçuları dəstəkləyən bir ölkə olub: “Bu gün Ermənistan etnik təmizləmə siyasəti nəticəsində monoetnik ölkələrdən birinə və birincisinə çevrilib. Orada 97 faiz erməni milləti yaşayır. Azərbaycan isə multikultural, tolerant bir ölkədir. Bu gün Azərbaycanda xeyli sayda erməni ailələri yaşayır. Biz Azərbaycanın çoxmillətli ölkə olmasını qəbul edirik. Amma gəlin görək, ermənilərdə biz azərbaycanlılarla bu formada davrana biləcək istək varmı? Təbii ki, yox.

Əgər bizim ata-baba yurdumuz işğal olunubsa, bu gün də işğaldadırsa, hesab edirəm ki, Azərbaycan ailəsində böyüyən hər bir gənc vətənpərvər ruhda böyüməlidir. Bu gün Azərbaycanın hər bir vətəndaşı, xüsusən də gənc nəslin nümayəndələri Ali Baş Komandanın bir əmrinə hazır olduqlarını bildirirsə, deməli Azərbaycan torpaqlarının işğaldan azad olunacağı gün uzaqda deyil. Düşünürəm ki, vətənpərvlik hissləri də bu formada davamlı olmalıdır. Bu vəziyyətdə Azərbaycan mətbuatının, jurnalistlərin, ziyalılar elitasının üzərinə düşən əsas məsələ vətənpərvərlik ruhunda gənclərin yetişdirilməsidir. Hazırkı dönəmdə ölkə televiziyalarında, radiolarında, çap və elektron mediada çoxlu sayda hərbi vətənpərvərlik ruhunda mahnılara, videoçarxlara, reportajlara, yazılara ehtiyac var. Bu artıq reklam deyil, əksinə insanların vətənpərvər olaraq dövlətinə bağlılığını tələb etməyə hesablanıb. Düşünürəm ki, bu prosesə mətbuat daha yaxından qoşulmalıdır. Təkcə dövlətin qurumu ilə bu addımları atmaq yetərsizdir. Vətənpərvərlik tərbiyəsi ailədən başlamalıdır. Hər bir valideyin öz övladına torpağını, Vətənini sevdirməyi aşılamalı, öyrətməlidir. Həmçinin orta məktəblərdə, universitetlərdə, akademiyalarda bu proseslər davamlı təbliğ olunmalıdır. İnsanların ruhunda, varlığında, mənəvi dünyasında Vətən sevgisi olmalıdır. Ümumiyyətlə, onlar Azərbaycanı nəinki hərbi sahədə, eləcə də elm sahəsində - alim, həkim, mühəndis kimi ölkəmizin hüdudlarından kənarda da yüksək səviyyədə təmsil etməlidirlər. Biz bu ənənəni davam etdirməliyik. Çünki bu bizim və ziyalılarımızın mənəvi və vətəndaşlıq borcudur”.



# YAP Səbail rayon təşkilatında tələbələrlə videoformatda konfrans keçirilib

YAP Səbail rayon təşkilatının sədri Şəmsədin Hacıyevin sədrliyi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbələrinin iştirakı ilə videoformatda konfrans keçirildi. SİA-nın verdiyi məlumata görə, konfransda ADPU-nun 100 nəfər Yeni Azərbaycan Partiyasının üzvü olan tələbələsi, eləcə də YAP Səbail rayon Gənclər Birliyinin sədri və üzvləri iştirak etdilər.

Ş.Hacıyev ölkəmizdə, regionumuzda və dünyada gedən ictimai-siyasi proseslər, bu proseslərdə gənc nəslin rolu və töhfələri haqqında konfrans iştirakçılarına ətraflı məlumat verərək müstəqil dövlətçiliyinə, torpağına bağlı Azərbaycan gəncliyinin müasir dövrün çağırışlarına uyğun ümdə vəzifələri haqqında geniş danışdı. Vurğulandı ki, YAP Səbail rayon təşkilatının ilk özək təşkilatı Azərbaycan Dövlət Pedaqoji Universitetində yaranmışdır və ADPU gəncləri Yeni Azərbaycan Partiyasının və Səbail rayonunun ictimai həyatında hər zaman flaqman rolu oynayırlar. Gənclər çox yaxşı məlumatlıdırlar ki, xalqımızın, dövlətimizin bu gün ən mühüm problemi işğal altında olan torpaqlarımızın azad olunması və Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasıdır. Tarixən torpağına bağlı Azərbaycan xalqının qədim dövlətçilik ənənələri haqqında danışan Ş.Hacıyev bildirdi ki, bu gün cəmiyyətimizdə Xalq-Lider-Ordu arasında sarsılmaz inam və qarşılıqlı etimad mövcuddur. Cənab Prezident İlham Əliyev Qarabağ həqiqətləri, Azərbaycanın bu münaqişədəki haqlı və prinsipial mövqeyi ilə bağlı ən yüksək beynəlxalq tribunalarda, hökumətlərarası ikitərəfli və çoxtərəfli mü-



nasibətlərdə, irili-xırdalı bütün beynəlxalq tədbirlərdə, görüşlərdə qətiyyətlə, cəsarətlə, tərəddüdsüz və birmənalı şəkildə mövqe ortaya qoyur. Bütün Azərbaycan xalqı kiçikdən-böyüyə Ali Baş Komandanın bir əmri ilə yumruq kimi birləşməyə və torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırdırlar.

YAP Səbail rayon təşkilatının çoxşaxəli fəaliyyəti, cəbhə bölgələrinə təşkil olunan səfərlər, gənclərin vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində keçirilən mədəni-kütləvi tədbirlər, həmçinin aztəminatlı rayon sakinlərinə göstərilən diqqət və mütəmadi reallaşdırılan sosial aksiyalar haqqında gənclərə ətraflı məlumat verən Sədr gəncləri daha da təşəbbüskar olmağa, müxtəlif layihələrlə çıxış etməyə və ictimai-siyasi proseslərdə fəal vətəndaş mövqeyi bildirməyə dəvət etdi. Xüsusi vurğulandı ki, gənclərimizin öncül vətəndaşlıq borcu yaxşı təhsil almaq, xarici dil və son texnoloji biliklərə yiyələnmək, daim öz üzərlərində işləmək və yüksəkixtisaslı kadrlar kimi müstəqil dövlətimizin daha da qüdrətlənməsi üçün çalışmaqdır. Gənclər sosial şəbəkələrdə, xüsusilə düşmən cəbhəsindən gələn informasiya müharibəsində Azərbaycanın haqq səsini yüksəltməli və erməni yalanlarını ifşa etməlidirlər. Bunun üçün isə gənclərin təşkilatlanması, sıralarının genişlənməsi və bir yumruq kimi bir nöqtəyə vurmaları tələb olunur. Ş.Hacıyev bütün bu qeyd olunan fəaliyyət istiqamətlərində gənclərə uğurlar arzuladı.

Çıxış edən YAP Səbail rayon Gənclər Birliyinin sədri, Azərbaycan Dövlət Pedaqoji Universitetində rektorun köməkçisi Riyad Rüstəmli YAP Səbail rayon Gənclər Birliyinin pandemiya ilə əlaqədar sərt karantin rejimində fasiləsiz fəaliyyəti, rayon GB-nin təşkilatçılığı ilə videoformatda reallaşan çoxsaylı maarifləndirici seminarlar və gələcək layihələr haqqında danışdı. R.Rüstəmli gənclərimizin öhdələrinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəklərinə dair əminliyini ifadə etdi.

YAP Səbail rayon Gənclər Birliyinin sədr müavini, rayon partiya təşkilatının məsləhətçisi Fuad Heydərli rayon partiya təşkilatında gənclər üçün yaradılan şəraitdən bəhs edərək gənclərlə işin təşkili mexanizmi və gələcəkdə nəzərdə tutulan layihə və proqramlar haqqında danışdı. F.Heydərli YAP Səbail rayon təşkilatının ictimai-siyasi fəaliyyətində yaxından iştirak edən ADPU tələbələrinə təşəkkür etdi və gələcəkdə onları daha da fəal olmağa səslədi. Çıxışlardan sonra konfrans tələbələrin çoxsaylı sualları əsasında interaktiv müzakirələrlə davam etdi. Konfransda iştirak edən ADPU-nun II kurs tələbələri Abbasova Fidan, Məsimova Nişanə və Məmmədova Ruqiyyə onları maraqlandıran suallar ətrafında gənclərlə fikir mübadiləsi apardılar.

# Erməni neofaşizminin iç üzü BMT tribunasında

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci ilin sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli, videoformatda keçirilən iclasında 182 ölkə arasında Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi altıncı çıxış etdi. Azərbaycan prezidenti öz çıxışında Qoşulmama Hərakatının dünya siyasətində və beynəlxalq münasibətlərdə oynadığı rola toxunaraq demişdir: "Özünün tarixi boyunca Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsində fundamental rol oynamış və davamlı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət edilməsinə çağırmışdır. Qoşulmama Hərəkatı BMT-nin rolunun gücləndirilməsinə çox böyük əhəmiyyət verir və onun potensialından tam istifadə olunması üçün səylərin göstərilməsini vacib hesab edir".***



**İlkin ƏLİYEV, Gənc Politoloqlar Mərkəzinin sədri**

Azərbaycan prezidenti Qoşulmama Hərəkatının əsas missiyasını bir daha xatırladaraq qeyd etmişdir ki, Qoşulmama Hərəkatı artmaqda olan, BMT Nizamnaməsini və beynəlxalq hüququ sarsıdan, birtərəflilik və birtərəfli tədbirlərdən istifadə halları ilə bağlı ciddi narahatlığını vurğulayır, ədalətli, bərabərhüquqlu dünya nizamının və qlobal demokratik idarəçiliyin yaradılması üçün BMT-nin Nizamnaməsinə və beynəlxalq hüquqa ciddi riayət olunması vasitəsilə multilateralizmin və BMT çərçivəsində çoxtərəfli qərar qəbul olunması prosesinin təşviqi, qorunması, canlandırılması, islahatların aparılması və gücləndirilməsinə sadiqliyini bir daha qeyd edir.

Cənab İlham Əliyev Qoşulmama Hərakatının öz əhəmiyyətini bu gün də saxlamaqda olduğunu, bu il Qoşulmama Hərəkatının təməl prinsiplərini özündə əks etdirən Bandunq Bəyannaməsinin qəbul edilməsinin 65 illiyininin qeyd ediləcəyini, qəbul edildiyi gündən Bandunq Prinsipləri vasitəsi ilə onlara sadiqliyini bəyan edən dövlətləri soyuq müharibə dönəmində istiqamətləndirildiyini, soyuq müharibədən sonra qarşı-qarşıya dayanan iki blokun mövcud olmamasının Bandunq Prinsiplərinin əhəmiyyətini və qüvvəsini heç də azaltmadığını, əksinə, sülh və inkişafa dair mürəkkəb çağırışların fonunda onların bu gün hər zaman olduğundan daha əhəmiyyətli olduğunu xatırlatmışdır.

BMT-nin əhəmiyyətinə toxunaraq Azərbaycan Prezidenti BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırış etmişdir.

Azərbaycan Prezidenti demişdir: "Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq".

Daha sonra Azərbaycan Prezidenti yeni bir ideya irəli sürərək qeyd etmişdir ki, "BMT universal üzvlüyü təmin edən yeganə qlobal təsisatdır və beləliklə də dayanıqlı inkişafa nail olunması məqsədilə qlobal iqtisadi idarəçiliyi əhatə etmək iqtidarındadır. Bu səbəbdən BMT-nin qlobal iqtisadi idarəçilikdə rolu gücləndirilməlidir. Qlobal iqtisadi idarəçilikdə müvafiq rolu oynamaq üçün təşkilat çərçivəsindəki proseslərə, multilateralizmə və onun təməl dəyərlərinə sadiqlik baxımından bütün üzvlərin siyasi iradəsi olduqca əhəmiyyətlidir".

Prezident İlham Əliyev 2020-ci ilin sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli, videoformatda keçirilən iclasındakı çıxışının ikinci hissəsinə : "İndi mən Azərbaycan adından çıxış edirəm!" deyərək yüksək trubinadan bəyan etmişdir: "Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir".

Daha sonra o demişdir: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir".

### "MƏN AZƏRBAYCAN ADINDAN ÇIXIŞ EDİRƏM!"

Həmin video toplantıda dövlətimizin başçısı cənab İlham Əliyev öz parlaq nitqi ilə dünyaya bir həyacan təbili çalmış və bu ali tribunadan Ermənistanın, həm də indiyədək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olanları, artıq faşistləşmiş dövlətə havadarlıq edənləri açıq, qətiyyətli və cəsarətli şəkildə ifşa etmişdir.

Azərbaycan Prezidenti ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv olduğunu, müstəqilliyin ən yüksək dəyər və Azərbaycan xalqının hər zaman azad və müstəqil dövlətdə yaşamaq ümidinin və istəyinin təzahürü olduğunu, təqribən 30 illik müstəqilliyi dövründə Azərbaycan müxtəlif sahələrdə çox böyük tərəqqi əldə etdiyini qeyd etmişdir. Daha sonra prezident bütün üzv dövlətlərin BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürdüyünü, lakin Ermənistanın öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmiş olduğunu, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etməsini, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsinin Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini, təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam etdiyini, Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirdiyini, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, Ermənistanın Xocalı soyqırımını törətdiyini, ondan çox ölkənin Xocalı soyqırımını tanıdığını, Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçiridiyini, Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv etdiyini,Ermənistan qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca mülki əhalini qəsdən hədəf aldığını, təxribatlar törətdiyini bir daha BMT üzvü olan dövlətlərin başçılarının diqqətinə çatdırmışdır.

Azərbaycan Prezidenti Ermənistanın sonuncu təxribat aktını 2020-ci ilin iyul ayında Ermənistan-Azərbaycan sərhədində törətdiyini, Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilərimiz və bir mülki şəxsimizin öldürüldüyünü, mülki infrastruktura ciddi zərər vurulduğunu, Ermənistanın diversiya dəstəsinin Azərbaycan sərhədinin təmas xəttini keçməyə cəhd etməsini, 2020-ci il avqustun 23-də həmin dəstənin başçısının Azərbaycan hərbçiləri tərəfindən yaxalanmasını, o, dəstə tərəfindən azərbaycanlı hərbçilər və mülki vətəndaşlara qarşı terror aktlarının törədilməsinin planlaşdırıldığını etiraf etməsini də dünya liderlərinin diqqətinə çatdırmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev öz çıxışının bu hissəsində demişdir: "Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır".

Daha sonra Azərbaycan Prezidenti qeyd etmişdir ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir.

Dövlətimizin başçısı qeyd etmişdir ki,"Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. "Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub"- deyən Azərbaycan prezidenti dünya dövlətlərinin başçılarını bir daha Ermənistanın Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdığı barədə xəbərdar edib.

O deyib: "Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Sonda Azərbaycan prezidenti bir daha qətiyyətlə vurğulayıb ki, Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir. Prezident İlham Əliyev 2020-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edərək bir daha dünyaya bəyan edib ki, Erməni faşizminin cinayətkar əməlləri cəzasız qalmamalıdır.

## Toyların keçirilməsinə icazə verildiyi halda bunlara diqqət ediləcək



Toylara icazə verilsə bu, ən yüksək riski olan sahələrdən biri olacaq. Çünki eyni anda bir məkana çox sayda adam yığışacaq. SİA-nın məlumatına görə, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) sədrinin müşaviri Elxan Mikayılov deyib.

Onun sözlərinə görə, toyların keçirilməsinə icazə verildiyi halda pandemiya dövründə şadlıq saraylarının fəaliyyətinin necə təşkil olunması ilə bağlı tənzimləyici normalar müəyyənləşdiriləcək və nəzarət tədbirləri həyata keçiriləcək. E.Mikayılov qeyd edib ki, toylar şadlıq saraylarında təşkil olunduğuna görə onlar da ictimai iaşə obyektinin bir növü sayılır və bu səbəbdən AQTA tərəfindən onlara nəzarət edilir: "Əksər şadlıq saraylarının restoran fəaliyyəti var, yəni vətəndaşlara restoran kimi də xidmət göstərirlər. Kafesi, restoranı olan şadlıq saraylları artıq nəzarətin mahiyyəti və nəzarət olunan məsələlərlə yaxından tanışdır. Bu, imkan verəcək ki, toylara icazə verildiyi halda şadlıq saraylarında həmin tələblər daha rahat yerinə yetirilsin. Bununla bağlı metodiki təlimatlarımız da var, dövrü olaraq şadlıq sarayları ilə də görüşlər təşkil olunur". AQTA rəsmisi əlavə edib ki, toyların keçirilməsinə icazə verildiyi halda bütün şadlıq sarayları ilə əvvəlcədən metodiki təlimatlar üzrə və Nazirlər Kabinetinin müvafiq qərarları ilə bağlı maarifləndirmə tədbirləri həyata keçiriləcək.

# Xalqımız bir daha dövlətimizin başçısının Azərbaycanın haqq səsini ali tribunalardan qətiyyətlə dünya ictimaiyyətinə çatdırmasının şahidi oldu



**Milli Məclisin deputatı Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi**

***- Məlahət xanım, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edib. Dövlətimizin başçısının çıxışında bir sıra mühüm məsələlərə toxunuldu. Bu barədə nə deyə bilərsiniz?***

- Cənab Prezident ilk olaraq çıxışında Dayanıqlı İnkişaf Məqsədlərinin Gündəliyi ilə bağlı mühüm bir amili qeyd etdi. Bilirsiniz ki, 2020-ci il üçün BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri İndeksində Azərbaycanın 166 ölkə arasında 54-cü yeri tutaraq Cənubi Qafqaz regionunda liderdir. Dayanıqlı İnkişaf Məqsədlərinə inteqrasiya üçün ümumilikdə 17 məqsəd, 169 hədəf və 244 göstəricidən Azərbaycan üçün 17 məqsəd, 88 hədəf, 119 göstərici seçilib.

Ümumiyyətlə, Cənubu Qafqaz dünyada böyük bir region olmasa da, mühüm geostrateji əhəmiyyətə malikdir. Dövlətimiz həyata keçirdiyi siyasət bütövlükdə regionun inkişafına da öz töhfələrini verir. Həyata keçirilən enerji, nəqliyyat və loqistik layihələr buna sübutdur. Bu gün hər kəsə məlumdur ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır və yeni layihələr həyata keçirildikcə bu rol daha da artacaq. Eləcə də, nəqliyyat layihələri də mühüm əhəmiyyət kəsb edir. Şərq-Qərb nəqliyyat dəhlizi, "dəmir İpək Yolu" adlandırdığımız Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi regionun tərəqqisində çox vacib amillərdir. Təbii ki, bu layihələr Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin təşəbbüsü və iradəsi ilə gerçəkləşir.

Bu gün Azərbaycan Avropa ilə Asiyanı birləşdirən mərkəz kimi dünyada böyük nüfuza malikdir. Onu qeyd etmək istəyirəm ki, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün Azərbaycan çox önəmli addımlar atır. Bütün bunlar isə təkcə ölkəmizin deyil, bütövlükdə regionumuzun inkişafında mühüm rol oynayır.

Bu layihələrdən işğalçı Ermənistan özünü məhrum edib, əgər bu ölkə işğalçı siyasətinə son qoyarsa, işğal etdiyi torpaqlarımızı tərk edib sülhə gələrsə regionda gerçəkləşən layihələr erməni xalqı üçün də tərəqqi gətirər.

Amma Prezident İlham Əliyevin çıxışında qeyd edildiyi kimi, Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinə əsasən, "sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan isə sülh mümkün deyil". Dayanıqlı beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi üçün işğala son qoyulmalıdır. Beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin edilməlidir.

***- Cənab Prezident çıxışında Ermənistanın işğalçılıq siyasətini bir daha ifşa etdi...***

- Xalqımız bir daha dövlətimizin başçısının Azərbaycanın haqq səsini ali tribunalardan qətiyyət və prinsipiallıqla dünya ictimaiyyətinə çatdırmasının şahidi oldu. Prezident İlham Əliyev Öz çıxışı ilə Ermənistanın təxribatçılıq fəaliyyətini, müharibə və işğalçılıq planlarını növbəti dəfə ifşa etdi.

Prezident İlham Əliyev təxribatların baş verməsi və gərginliyin artmasına görə bütün məsuliyyətin Ermənistan rəhbərliyinin üzərində düşdüyünü vurğuladı. Ermənistanın işğal olunmuş ərazilərdə beynəlxalq hüququ kobud şəkildə pozaraq qanunsuz həyata keçirdiyi məskunlaşdırma siyasəti ilə bağlı məlumat verdi. Dövlətimizin başçısı Livandan və digər ərazilərdən gələn ermənilərin işğal altında olan Azərbaycan ərazilərində yerləşdirilməsini beynəlxalq hüququn pozulmasına beynəlxalq təşkilat və qurumlar tərəfindən münasibət bildirilməməsinin yolverilməz olduğunu vurğuladı.

Beynəlxalq təşkilatların susqunluğu səbəbindən son vaxtlar Ermənistan tərəfinin Azərbaycana qarşı törətdiyi təxribatların sayı çox artıb. Ölkə rəhbəri Ermənistanın qəsdən qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca mülki əhalini hədəf almasının və təxribatlar törətməsinin heç bir normaya və hüquqa sığmadığını bildirdi. Prezidentimiz çıxışında Ermənistanın baş nazirinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozduğunu da qeyd etdi.

Azərbaycan Prezidenti həmçinin, Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır" bəyanatının danışıqlar prosesinə ciddi zərbə vurduğunu, işğalçı ölkə tərəfindən ölkəmizə qarşı törədilən təxribatların təcili qarşısının alınmasını diqqətə çatdırdı. Eyni zamanda, dövlətimizin başçısı bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırdı.

Ermənistan bu yaxınlarda təcavüzkar xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub. Dövlətimizin başçısı Ermənistanda həyata keçirilən "Azərbaycanofobiya" siyasətindən, erməni gənclərinə Azərbaycan xalqına qarşı nifrət aşılanmasından da danışdı və beynəlxalq təşkilatlar tərəfindən bunun qarşısının alınmasının zəruriliyini bildirdi.

Prezident İlham Əliyev dünyanın ən ali tribunasından Ermənistanın işğalçılıq, faşist, anti-insani siyasətini, yeni müharibə planlarını fşa etdi, BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın təcavüzkar siyasətinə son qoymaq üçün əməli tədbirlər görməyə, Ermənistanın bu hərəkətlərinə müşahidəçi qalmamağa çağırdı.

***- Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icra olunması əsas məqamlardan biridir. Sizcə, bunun üçün hansı addımlar atılmalıdır?***

- Çox təəssüf ki, beynəlxalq birlik işğalçı Ermənistana qarşı ciddi addımlar atmır. Doğrudur, qəbul olunmuş sənədlərdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir, torpaqlarımızın ermənilər tərəfindən işğal olunması faktı tanınır. Amma əsas məsələ işğalçı Ermənistana sülhə gəlmək üçün təzyiqlər göstərilməsidir. Cənab Prezident çıxışında ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatına toxunaraq qeyd etdi ki, yalnız bəyanatlar kifayət deyil, münaqişənin həlli istiqamətində real addımlar atılmaldır. Dövlətimizin başçısı onu da vurğuladı ki, münaqişənin tənzimlənməsi prosesində Minsk qrupunun bütün üzvləri fəal iştirak etməlidir.

Biz bilirik ki, vasitəçilik prosesində həmsədr ölkələr iştirak edir, faktiki olaraq Minsk qrupunun digər üzvləri prosesdən kənarda qalıb. Amma belə olmalı deyil. Çünki həmsədrlərin fəaliyyəti Azərbaycan xalqını qane etmir, onlar təcavüzkarla təcavüzə məruz qalan ölkə arasında fərq qoymur, işğalçı Ermənistana heç bir təzyiq göstərmir. Ona görə də, prosesə Minsk qrupunun digər üzvlərinin qoşulması prosesi canlandıra bilər.

Prezident İlham Əliyev çıxışında BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməsi məsələsinə də toxundu. Bu çox vacib məsələdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Ermənistan isə təqribən 30 ildir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir. İşğalçı dövlət olan Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır.

Dövlətimizin başçısı xüsusilə qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinə əsasən, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasının yenilənmiş zaman qrafiki tərtib edilməlidir. BMT-nin müvafiq təsisatları BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına və azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıtmasına töhfə verməlidir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur. Həmin qətnamələr icra edilənə qədər qüvvədədir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması isə qəbuledilməzdir.

Beləliklə, BMT kimi mötəbər tribunadan Prezident İlham Əliyev bir daha Azərbaycanın haqq səsini dünyaya çatdırdı və münaqişənin həlli ilə bağlı prinsipial mövqeyini bir daha bəyan etdi.

# YAP Kəlbəcər rayon təşkilatında məzunlarla görüş keçirilib

Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatının qərargahında bu il ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplamış gənclərlə görüş keçirilib. Rayon təşkilatının aparat işçiləri və II ixtisas qurupu üzrə 661 bal toplamış Abbaslı Aliyə Fariz qızı, III ixtisas qurupu üzrə 652 bal toplamış Mustafayeva Aysel Rəhim qızı, I qrup üzrə 690 bal toplamış Şahbazzadə Zərifə Şəhriyar qızı, III qrup ixtisası üzrə 655 bal toplamış Məmmədova Yurdamur Vüqar qızı, eləcə də, onların valideynlərinin, rayon təşkilatının üzvlərinin iştirak etdiyi görüşü rayon təşkilatının Aparat rəhbəri Qənaət Əsgərov açaraq ilk öncə gəncləri təbrik edərək onlara yeni-yeni uğurlar arzulayıb. Ölkəmizdə təhsilə göstərilən dövlət qayğısını yüksək dəyərləndirən Q.Əsgərov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinə uyğun olaraq Azərbaycanda təhsilin ikişafı prioritet istiqamətlərdən biri hesab olunur: "Azərbaycan



Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsilə xüsusi diqqət göstərilir, müasir tələblərə uyğun olan yeni-yeni məktəblər tikilir, şagirdlərə, tələbələrə, müəllimlərə dövlət qayğısı artırılır, gənc mütəxəssislər məsul vəzifələrə təyin olunur".

Dünyada pandemiya ilə əlaqədar yaranmış bir sıra çətinliklərə baxmayaraq, ölkəmizdə təhsil infrastrukturunun təkmilləşdirilməsi və təhsil sisteminin müasirləşdirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirildiyini qeyd edən Q.Əsgərov gənclərə bildirib ki, siz dövlətimizin təhsilə və tələbələrə olan qayğısından daha da faydalanaraq peşəkar kadr kimi formalaşmaqla respublikamızın və xalqımızın inkişafına dəyərli töhfələr verməyi və bu müqəddəs yolda onların hər birinə uğurlar arzulayıb.

Görüşdə çıxış edən gənclər pandemiya dönəmində nə qədər çətin olsada, bu il onların bəlli problemdən son zəngləri keçirilməsə də, görüşün təşkilinə, göstərilən diqqət və qayğıya görə təşkilatçılara və Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirib, onlar üçün yaradılan şəraitdən lazımınca yararlanaraq, ölkəmiz üçün savadlı mütəxəssis kimi yetişəcəklərinə söz veriblər.

Həmçinin, görüşdə valideynlər də çıxışlarında təhsil sahəsində qazanılan uğurların əsasında ölkə rəhbərliyinin həyata keçirdiyi uğurlu siyasətin dayandığını diqqətə çatdırıblar. Görüşün sonunda yüksək nəticə göstərmiş gənclərə Yeni Azərbaycan Partiyası Gəlbəcər rayon təşkilatı tərəfindən hədiyyələr verilib, xatirə şəkilləri çəkilib.

***Rəfiqə HÜSEYNOVA***

# Açıq havada toy və yas mərasimlərinin təşkilinə niyə icazə verilmir?



Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) açıq havada toy və yas mərasimlərinin təşkilinə icazənin verilməməsinin səbəbini açıqlayıb. SİA-nın məlumatına görə, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi sədrinin müşaviri Elxan Mikayılov deyib ki, hazırda açıq, həm də qaplı məkanlarda olan obyektlərdəki insanların sayı ilə bağlı məhdudiyyətlər var: "Kütləvi tədbirlərin təşkili qadağandır. Bir yerdə 10 nəfərdən çox insanın toplanması qadağası qüvvədədir. Bu, o deməkdir ki, bu tələb açıq məkanlarda ictimai iaşə obyektlərinə də şamil edilir. Açıq məkanlarda ona görə toy və yas mərasimlərinin təşkilinə icazə verilmir ki, qohumlar və tanışlar bu mərasimlərə gələrkən birbaşa masa arxasında əyləşib çay və qida qəbul etməklə məşğul olmurlar. Onlar tez-tez bir-biri ilə görüşürlər".

Sədr müşavirinin sözlərinə görə, adətən, yas və toy mərasimləri uzun müddət bir-birini görməyən insanların görüş yeri kimi qiymətləndirilir: "Bu o deməkdir ki, onlarla, yüzlərlə insan bir-biri ilə təmasda olarkən yoluxma riskini çox artıracaq. Bu, çox təhlükəli hal ola bilər. Amma eyni masa arxasında bir-birini tanımayan insanlar oturduqda bu risk baş vermir. Bütün bunlar onu deməyə əsas verir ki, bu məsələlərə epidemik risk aşağı düşdüyü halda baxılsın. Amma bugünkü vəziyyətin, qərarın əsas arqumenti ondan ibarətdir ki, kütləvi şəkildə toplaşma kütləvi şəkildə ünsiyyət və yoluxma deməkdir".

# Ermənilər terror qruplaşmalarının Qarabağa transferini etriraf edirlər




### Armenianreport: "Dümənimin düşməni mənim dostumdur..."

Son vaxtlar müxtəlif xarici media qurumlarında Ermənistan hərbi-siyasi rəhbərliyinin ölkə ərazisinə, eləcə də işğal altındakı Qarabağa Yaxın Şərq ölkələrinə bağlı olan müxtəlif silahlı qruplaşmaları, o cümlədən terror təşkilatlarına məxsus silahı dəstələrin transferləri ilə bağlı müxtəlif mənbələrə və faktlara əsaslanan yazılar, informasiyalar yer almaqdadır. Belə faktlardan biri də PKK/PJK terror qruplaşmalarının Suriyadan, İraqdan və İran ərazisindən Ermənistana sızdırılmaları barədədir. Düzdür, Ermənistanın hərbi-siyasi dairələri bu xəbərləri hər vəchlə inkar edir, guya belə bir transferlərin olmadığını iddia edirlər. Amma maraqlı məsələ budur ki, erməni KİV-ləri bu haqda yayılan xəbərləri təkzib etmirlər, hətta dolayısı ilə həmin faktları ictimailəşdirirlər. Həmçinin, baş nazir Nikol Paşinyanın bu siyasətini ən sərt və kəskin şəkildə hədəfə alırlar. Bəs məsələ daha nədədir?

"Əgər söhbət PKK-nın (Kürd Fəhlə Partiyasının) hərbi bölmələrinin bizim ordunun tərkibində aparacağı hərbi əməliyyatlarından gedirsə, qeyri-iradi belə bir sual verirsən: ordumuzda hər şey yerindədirmi?"

Belə etiraflardan birini Ermənistanın aparıcı müxalifətyönlü saytlarından biri olan Armenianreport "Düşmənimin düşməni mənim dostumdur -Uzun müddətəmi?" sərlövhəli başlıqlı yazı dərc edib. Yazıda əsasən, Paşinyanın orduda apardığı "islahatlar" hədəfə alınaraq, nəticəsinin ölkə və dövlətçilik maraqları üçün ziddiyyət daşıdığı, ağır fəsadlara səbəb olacağı ətrafında sərt fikirlər yer alıb.

SİTAT: "Əgər söhbət PKK-nın (Kürd Fəhlə Partiyasının) hərbi bölmələrinin bizim ordunun tərkibində aparacağı hərbi əməliyyatlarından gedirsə, qeyri-iradi belə bir sual verirsən: ordumuzda hər şey yerindədirmi?"

Armenianreport bu məqamda Tovuz hadisələrinə toxunur və hakimiyyətin bu məsələdəki "qələbə", "şücaət" xarakterli çıxışlarına nəzər salır, hətta "qəhrəmanlıq" göstərmiş erməni əsgər və zabitlərin dövlət tərəfindən mükafatlandırılmalarına toxunur və s. Əlbəttə, ermənilər hər zaman öz uğursuzluqlarını yaratdıqları miflləri ilə ört-basdır etməyə çalışıblar. Bu dəfə də həmin məsələ ətrafında var-gəl edən adıçəkilən erməni saytı nə qədər maraqlı görünsə də, müəyyən məsələlərdə ilginc faktları da ortaya çıxarıb.

SİTAT: "Belə təəssürat yaranır ki, hər şey yaxşıdır və mövcud mərhələdə yeganə məsələ əldə olunmuş uğurları möhkəmləndirmək, iyuldakı effektliyi və ordu quruculuğunu davam etdirmək. Bəs biz bunun yerinə nəyi müşahidə edirik? Bu guya ki, "orduya dəstək üçün" mülki alayların yaradılması və Anna Akopyan tərəfindən "qadınların hərbi hazırlığı üçün kursların" təşkil olunmasıdır. Özü də "Arsaxın" (Qarabağın-red) ərazisində. Digər bir sıra məsələlərə toxunacağıq".

Beləliklə, sözügedən məsələ ətrafında analitik təhlil aparan erməni saytı yazır ki, burada söhbət yalnız mülki alayların yaradılması təşkili deyil, həm də həmin proses ətrafında vaxtın, şəraitin, xaotikliyin və tələskənliyin müşahidə olunmasıdır.

### "Bunun nəticəsi çox kədərli olacaq və bizim hər birimizin gələcəyinə ağır təsir göstərəcək"

SİTAT: "Əgər ordu qarşısında qoyulmuş tapşırıqların öhdəsindən gəlməyi bacarırsa, bu zaman, hələ də məqsədi bəlli olmayan daha bir formalaşmanın yaradılması aydın deyil. 100 minlik formalaşmanın ehtimal olunan effektliyi nəyi həll edəcək ki, üstəlik orada baş nazirin dediyi kimi qadınlar, özü də heç bir say məhdudiyyəti olmadan xidmət göstərəcəklər. Çünki 100 minlik formalaşmanı silahlandırmaq, bütün lazım olan vasitələrlə təmin etmək lazımdır. Axı bütün bunlar onsuz da əriyib-yox olmağa davam edən büdcədən gedəcək. Bilmirəm siz necə düşünürsünüz, amma mənim üçün belə aydın görünür: alayların yaradılması hökumətin populist gedişindən başqa heç nə deyil. Üstəlik, bunun nəticəsi çox kədərli olacaq və bizim hər birimizin gələcəyinə ağır təsir göstərəcək".

Armenianreport bunun ardınca Nikol Paşinyanın arvadı Anna Akopyanın Qarabağa səfərinə toxunur və bu səfəri "turistik səfər" adlandırır, üstəlik, kütləvi şəkil alan selfi-təlimlərindən yazır.

SİTAT: "Onsuz da Akopyanı birinci ledi kimi deyil, sadəcə, adi qadın kimi görən respublika əhalisi qarşısında belə addım atmağa hansı ehtiyac var idi? Hər kəs onun oyunbazlıqlarından yorulub və baş nazirin arvadı olmasına baxmayaraq, erməni qadını cildindən çıxıb. Yumşaq desək, özünü ucuz kloun kimi təqdim edir".

Sayt bunun ardınca mövzunun əsas tərəfinə - Yaxın Şərqdən, Livandan və Suriyadan terrorçuların məsələsinə toxunur və əslində dolayısı ilə həmin reallığı etiraf edir.

### "Baş nazir Nikol Paşinyanın "Artsaxa" (Qarabağa-red.) Suriyadan, Livandan, Yaxın Şərqdən çıxanları yerləşdirməsi..."

SİTAT: "Lakin daha böyük problem də var ki, onun barəsində bu gün danışmasan olmaz: baş nazir Nikol Paşinyanın "Artsaxa" (Qarabağa-red.) Suriyadan, Livandan, Yaxın Şərqdən çıxanları yerləşdirməsi. Tarix göstərir ki, xarici erməniçilik dəfələrlə Ermənistan xalqına "köməyə" (dırnaqlar bizimdir-red.) yetişib. Pis günlərdə də yaxşı günlərdə də bizim dünyanın hər yerində olan erməni qardaşlarımız ilk çağırışdaca bizə "yardıma" gəliblər".

Təhlilin müəllifi buna sübut kimi "milli qəhrəman" adlandırdığı və birinci Qarabağ müharibəsində azərbaycanlıları kütləvi şəkildə qətlə yetirən, Ermənistanın işğalçılıq və təcavüzkar siyasətinin aparıcı terrorçularından olan Livan ermənisi, daşnak üzvü Monte Melkonyanı göstərir.

SİTAT: "Lakin pəncərədən çöldə 90-cı illər deyil... Təəssüf ki, qloballaşma və məsafələr öz işlərini görüblər: bir faktı göstərmək olar ki, bugünkü maraqlar patriotizmə deyil, əsasən material maraqlara söykənir. Bundan əlavə, söhbət səmimi ermənilərdən gedərkən, digər bizə yaxın millətlərdən - əsrlərdir (???-red.) Ermənistan ərazilərində yaşayan kürdlərdən gedir. Belə bir qədim misal var: mənim düşmənimin düşmənimənim dostumdur. Heç kimə sirr deyil ki, kürdlər azsaylı, lakin mübariz xalqdır..."

Söhbəti məhz bu məcraya yönəldən erməni saytı həm də erməni həyasızlığı nümayiş etdirərək, kürdləri "türklərin düşmənləri" kimi qələmə verir, unudur ki, bu gün Türkiyənin ərazisində yaşayan bir çox millətlər, o cümlədən kürdlər bütün imtiyazlara, hətta parlamentlərdə deputat yerlərinə və s. malikdirlər. PKK/PJK kimi silahlı qruplaşmalar isə bilavasitə terror təşkilatları kimi tanınırlar və onların kürd xalqına heç bir bilavasitə bağlılıqları yoxdur. Necə deyərlər, terrorçunun, caninin milləti olmur!

Məhz bu reallığı kənara qoymaqla, PKK terror təşkilatını kürd xalqı adından Türkiyənin barışmaz düşməni adlandıran Armenianreport sübut edir ki, artıq Ermənistanın və işğal altındakı Qarabağın ərazilərində həmin terrorçular yerləşməyə başlayıblar - azərbaycanlı mülki insanları qətlə yetirmək, işğalçılıq siyasətinə dəstək göstərmək və qan axıtmaq üçün!

"Onlar yalnız dağlıq ərazilərdə hərbi əməliyyatlar aparmağı bacarmırlar, həm də diversiya törətmək imkanlarına malikdirlər ki, bu da bizim regionda assimmetrik fəaliyyəti cəhətindən münbitdir..."

Bütün bunların müqabilində erməni saytı PKK terror təşkilatı tərəfindən Türkiyədə törədilən, mülki şəxslərin öldürülməsi ilə nəticələnən qanlı aksiyaları dəstəklədiyini yazır, üstəlik Ermənistan hökuməti tərəfindən də alqışlandığını açıq-aşkar, həyasızcasına yazır.

SİTAT: "Türkiyənin şimal əyalətlərindən verilən gündəlik məlumatlar sübut edir ki, kürd xalqı öz dövlətinin qurulması məqsədindən əl çəkməyəcək. Erməni hökuməti kürdlərin bu məsələdəki addımlarını diqqətdə saxlayır və dəstəkləyir. Əgər söhbət PKK-nın (Kürd Fəhlə Partiyasının) hərbi bölmələrinin bizim ordunun tərkibində hərbi əməliyyatlardan söhbət gedirsə, qeyri-iradi belə bir sual verirsən: ordumuzda hər şey yerindədirmi?"

Göründüyü kimi, daha bir etiraf və daha bir terror dəstəyi. Çünki Armenianreportun təhlilində yazılır ki, əgər PKK erməni ordusu ilə birgə silahlı əməliyyatlara başlayarsa, bu onların xeyrinə ola bilər.

SİTAT: "Döyüşçülərin (PKK-çıların - red.) bizim ölkəyə göndərilməsi rəqəm və masştabları barədə məlumatlara baxarkən, aydın olur ki, onlar yalnız dağlıq ərazilərdə hərbi əməliyyatlar aparmağı bacarmırlar, həm də diversiya törətmək imkanlarına malikdirlər ki, bu da bizim regionda assimmetrik fəaliyyəti cəhətindən münbitdir..."

### "Paşinyan dəyəri min dollar olan kostyumlar geyinir, qara kürü yeyir və qiyməti yarım milyon dollara olan saat taxır, qarajında lüks-vtomobillər toplayıb"

Erməni saytı digər bir məqama da toxunaraq yazır ki, əgər Paşinyan və onun əlaltıları siyasətdən kənara atılarlarsa, bu zaman ölkəyə cəlb olunmuş və bir çox dünya ölkələri tərəfindən terrorçular kimi tanınan qruplaşmalar nəinki Paşinyanın özünə, həm də bütün ölkəyə mənfi təsirlər göstərəcəklər.

SİTAT: "...Təəssüf ki, biz barrikadalarda Paşinyanın saqqallı sifəti, kepkada və əli bintli şəkildə necə görmüşdüksə, elə də qalıb. Bəli, o dəyəri min dollar olan kostyumlar geyinir, qara kürü yeyir və qiyməti yarım milyon dollara olan saat taxır, qarajında lüksvtomobillər toplayıb. Lakin həmin adamdır, başında kepka ölkəni elə bir turbulentliyə salıb ki, oradan çıxmaq üçün hətta kürd qiyamçıları belə bizə dəqiqliklə kömək edə bilməyəcəklər".

**Rövşən RƏSULOV**

ANALİTİK

# Boloşevik, yoxsa quldurbaşı?

## *Yaxud, cəbhəçi fəal Əli Kərimli çeteseinin "təqdimat" başlığında hansı qürura yol verib?*

***AXCP sədri Əli Kərimlinin nəinki cəmiyyət arasında, eləcə də müxalifət düşərgəsində heç bir nüfuzunun olmaması reallığı hər zaman olduğu kimi, ya bəytərifi, ya da özünüreklam vasitəsi ilə örtbasdır edilir. Lakin şüar xarakterli, populuzmə söykənən ört-basdırlar sözün əsl mənasında kənardan çox gülünc, istehzadoğurucu şəkildə görünməkdədir.***



Məhz bu xüsusda əldə etdiyimiz daha bir məlumat sözügedən məsələni ehtiva etməkdədir. SİA xəbər verir ki, AXCP-nin rəyasət heyətinin üzvü Nicat Abdullazadə ağası Əli Kərimlinin siyasi reputasiyasının get-gedə uçuruma yuvarlanmasından bərk əndişə keçirib və elə ağasının da tapşırığı əsasında onun reaklamını həyata keçirməyə çalışıb. Amma bu reklam çox ucuz və uğursuz alınıb.

### Eqoizm, populizm, pafos və təkəbbür!

Məsələ ondadır ki, N.Abdullazadə AXCP sədrinin yaxın ətrafının şəkillərini sosial şəbəkədə paylaşaraq, onları "Əli Kərimlinin yenilməz batalyonu" adlandırıb və bununla da özünü və sədrini, eləcə də yaxın ətrafını gülünc vəziyyətə salıb. Eqoizm və təkəbbür xarakteri də daşıyan bu cür yanaşmaya başqa cür ad da vermək olmur, amma bəri başdan deyə bilərik ki, vaxtilə mübarizlik təcəssümünü təbliğ edən bir filmimizdə - "Yenilməz batalyon"dakı sadə əsgər obrazlarını gətirib dövlətini, xalqının maraqlarını xarici qüvvələrə satan Əli Kərimli və ətrafı kimi birinə calamaq cəhdi sadəcə düşüklükdür, siyasi, ya da digər hallardakı düşüklük!

Ancaq daha yaxşı olardı ki, N.Abdullazadə ağası Əli Kərimlini və yaxın ətrafını tamamilə ayrı obrazlara bənzədərdi, məsələn "Əlibaba və 40 quldur" filmindəki quldurbaşına və onun quldurlarına. Çünki pul-para hərisliyindən tutmuş, dünya malına görə bir-birləri ni didən həmin "zümrəni" başqa cür təsəvvür etmək də mümkün deyil. Bunun isə sübutları var.

### Biri sadomazoxist, o biri təhqir maşını, digəri qara kassa, daha biri də minnətqoyan sui-istifadəçi...

AXCP sədrinin 40 quldurundan biri onun istefa vermiş müavini Fuad Qəhrəmanlıdır. Həmin F.Qəhrəmanlı ki, əyalını, qız övladlarını vəhşicəsinə, sadomazoxistcəsinə döyüb, bunu "qəhrəmanlıq" kimi görüb. Onun ailəsi bundan güc-bəla ilə, məhkəmə yolu ilə uzaq durmağa çalışdı. Yoldaşının barmağını, uşağının dizini sındırdı və bu gün də onları müxtəlif yollarla təhdid etməkdən çəkinmir.

Yaxud, sosial şəbəkələrdə tanıdı-tanımadı hər kəsi təhqir edən, cinayət məsuliyyətinə cəlb edildikdən sonra belə cəzaçəkmə müəssisəsində qanunsuz soyuq silah gəzdirən, xuliqanlıq əməllərinin sayı hesabı olmayan Məmməd İbrahim. Bir adam ki, 17 yaşlı oğlunu da öz çirkin əməllərinə sövq edərək, Milli Məclisdə dağıntılar törətməyə göndərirsə, ona quldur adınan başqa hansı adı vermək olar?

Yaxud götürək Əli Kərimli üçün çirkli pulları "yuyan", onun qara kassiri kimi tanınan Aqil Məhərrəmlini. Hər kəs bilir ki, radikal və dağıdıcılıq əməllərinə görə Əli Kərimli Rusiyadan gələn hər ay 25 min dolları bu adam təhvil alırdı. Bəs, bu cür adama hansı adı verək? Əlbəttə ki, quldurbaşı xəzinadarı!

Ya da Qarabağ qazisi adından siyasi məqsədləri üçün tək özünün deyil, Əli Kərimli və cəbhəsinin də sui-istifadə etdikləri Asif Yusifliyə hansı adı verə bilərik? Minnətqoyan və...

Əslində, həmin N.Abdullazadənin "Əli Kərimlinin yenilməz batalyonu" adlandırdığı bu dəstəsini vaxtilə bolşeviklərin törətdikləri əməlləri ilə eyniləşdirməsi daha doğru olardı. Çünki ya 40 quldur olsun, ya da bolşevik, onların heç birində ciddi fərq yoxdur. Fəqr yalnız zamandadır. Ancaq zaman ötsə də, vaxtlar, vədələr dəyişsə də, bu quldurbaşı və ətrafındakı quldurları nədənsə dəyişilmirlər...

***Rövşən NURƏDDİNOĞLU***

# "Muzdlu döyüşçülərə ehtiyacı olan ölkənin adı Ermənistandır"

***"Ermənistanın son aylarda Azərbaycana qarşı istifadə etdiyi uğursuz təbliğat və ideoloji təxribat istiqamətlərindən biri məhz bəzi Yaxın Şərq ölkələrindən, Suriyadan və digər ölkələrdən guya Azərbaycana Azərbaycan tərəfdən döyüşmək üçün müəyyən döyüşçülərin mütəşəkkil qaydada gətirilməsindən ibarət olub. Öncədən qeyd edim ki, bu Ermənistanın Azərbaycana qarşı ideoloji təxribatlarında yeni istiqamət deyil. Hələ 25-30 il bundan əvvəl seçilmiş ideoloji təxribatın yeni formadan davamı və təzahürüdür". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.***



Onun sözlərinə görə, yəqin hamı xatırlayar ki, hələ uzun illər əvvəl Ermənistan Azərbaycana qarşı özünün təcavüzkar addımlarını atmaqla bərabər, guya Azərbaycanın Əfqanıstandan, Pakistandan, həttə Türkiyədən ülküçü millətçilərin dəstə-dəstə təşkil olunaraq Azərbaycana gətirildiyi və ermənilərə qarşı bu qüvvələrin əli ilə mübarizə aparıldığı barədə yalanlar uydururdular: "Amma daha sonra həmin ölkələrdən Azərbaycan tərəfində Ermənistana qarşı döyüşmək üçün mütəşəkkil qaydada hansısa dəstələrin gətirildiyinə dair bir dənə də olsa sübutlayıcı fakt ortaya çıxmadı. Eynilə də bu gün Yaxın Şərq ölkələrindən Azərbaycana döyüşçülərin gətirilməsi barədə iddialar perspektivsizdir və bunun hansı niyyətlə uydurulduğu ilk baxışdan hər kəsə bəlli olur".

Siyasi şərhçi bildirib ki, Ermənistanın bu ideoloji təxribatlarda məqsədi var: "Əvvəl onlar bu gün özləri Azərbaycana qarşı təcavüzkar siyasəti davam etdirdikləri, Azərbaycana qarşı yeni təcavüzkar müharibəyə hazırlaşdıqları halda bu cür informasiyalar yaymaqla dünya ictimaiyyətində belə bir rəy formalaşdırmağa çalışırlar ki, guya müharibəyə hazırlaşan Ermənistan yox məhz Azərbaycandır: "Və Azərbaycan bu dəfə kənardan gətirilən qüvvələrin əli ilə Ermənistana qarşı təcavüzə hazırlaşır. Bir növ bu cür məlumatlarla Ermənistan özünün yeni təcavüzkar müharibələrə hazırlaşmaq niyyətini və planlarını ört basdır etməyə çalışır. Bundan əlavə guya Azərbaycan cəmiyyətinin özünün ordu üçün bir kadr bazası olmaq potensialları tükəndiyinə görə, orduda döyüşmək üçün kənardan gətirilən qüvvələrə ehtiyac hissi varmış kimi imic yaratmağa çalışırlar. Halbuki bu ehtiyacın içində olan subyektin özü məhz Ermənistandır".

A.Quliyev vurğulayıb ki, Ermənistan ordusunda fərarilik var cəmiyyət istila edilmiş özgə torpaqlarında hərbi xidmət keçməyin təhlükəsini və məsuliyyətini anlayır: "Buna görə də qorxur və övladlarını orduya göndərməkdən imtina edirlər. Belə şəraitdə Ermənistanın məhz özü başqa ölkələrdən muzdlu döyüşçülərin gətirilməsinə ehtiyac hiss edir. Həmçinin Ermənistan özünün Yaxın Şərq ölkələrindən orduya muzdlu döyüşçü cəlb etmək siyasətini bu yanlarla ört-basdır etməyə çalışır. Bu məsələ barədə təkcə Azərbaycan mediasında deyil, Yaxın Şərq ölkələrini və Avropa mediasında da Ermənistanın müəyyən istiqamətlər üzrə Yaxın Şərq ölkələrindən muzdlu döyüşçüləri öz ordusuna cəlb edir. Bir sıra marşurutların da adı çəkilir ki, bu faktlara ciddi yanaşmaq lazımdır. Bir sıra dövlətlər də bu məsələyə ciddi yanaşmalı və onların ərazisindən muzdu döyüşçülərin keçirilməsinə icazə verməməlidirlər".

***Aysel Məmmədova***

## *PKK terror təşkilatına mənsub ünsürlərdən ermənilərə təxribat təlimləri*

***Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə Suriya və İraqdan gətirilən PKK terror təşkilatına mənsub ünsürlər burada ermənilərə təxribat, basqın və kustar üsulla partlayıcı hazırlanması təlimləri verəcək. SİA-nın məlumatına görə, bu barədə "Yeni Şafak" nəşri bildirib.***

Qeyd olunub ki, Suriya və İraqdakı PKK-çılarla əlaqələri Ermənistanın İraqdakı səfiri Xraçya Poladyan qurub. Ermənistan Qarabağda PKK-çıları yerləşdirdi - Əvəzində raket veriləcək Keçirdiyi iclaslarda qrupları razı salan Poladyan terrorçuların Dağlıq Qarabağa nəqli üçün Şimali İraqdakı Talabani ailəsinin nəzarətində olan Kürdüstan Yurdsevərləri Birliyi ilə də razılığa gəlib.



***Bax, bunu tanımasına şübhə də etmirəm. Çünki, Əli Kərimlinin primadonnaları olduğü kimi, "Mat Tereza"ları da çox olub. Xədicəsi, Gültəkini və... daha kimlər, onun ardınca isə gəldi Sevinc Osmanqızı "Mat Tereza"sı hesab olundu. Və S.Osmanqızı özünü "Mat Tereza" kimi təzdiqləmək üçün, başladı Əli Kərimli sayağı satqınlıq etməyə, daha doğrusu satılmağa. Satılmağın da bir məqsədi qrantlar, evlər, villalar əldə etmək. Azərbaycanın üzləşdiyi ən ciddi problemlərindən də elə biri belə mənəviyyatsız, əxlaqsız müxalifətdir. Nə qədər paradoksal olsa da, onlar bilmir ki, ölkə hakimiyyəti normal, adekvat, ciddi və hadisələrə dərhal normal reaksiya verən müxalifətdə maraqlıdır.***

# Vətənşüvənlər arqumentsiz qalanda nə deyir?



### Satqın AXCP sədrinin ikinci "Mat Tereza"sı - Sevinc Osamanqızı kimi...

Belə müxalifət hakimiyyəti sərt tənqid etməli, iqtidar mənsublarını diskussiyalara və debatlara çağırmalı, problemlərin həll yollarını təklif etməli, hakimiyyət təklifləri qəbul etməyəndə isə xalqı etiraz aksiyalarına səsləyərək iqtidara təzyiq göstərməlidir. Parlament də, hökumət də, hakimiyyət də belə müxalifətin iştirakı ilə formalaşmalıdır.

Amma...sevinclər, xədicələr, gültəkinlər, leylalar və kimlər, kimlər... çirkaba bulaşmışlar anlamalıdırlar ki, reallıq odur ki, Azərbaycan dövləti nə daxildən, nə də xaricdən qaynaqlanan çoxsaylı çağırışlarla qarşılaşıb və bir dəfə də geri çəkilməyib. Və bir də onu da anlamalıdırlar ki, xaricdən maliyyələşdiklərini, Azərbaycandan kənarda olanların göstəriş və əmrləri ilə davrandıqlarını var qüvvələri ilə təkzib etsələr də, yalan cidasını "YouTube" ilə "Facebook"-dakı ikiüzlü çıxışların çuvalında gizlətmək mümkün deyil. Bunu AXCP sədri Əli Kərimli çox gec olsa da, anlamalı, ya da anlamağa çalışmalıdır.

Və bu gün ona görə sizin kimi satqınlara cavab vermək istədim ki, iyrənc hərəkətlərinizə BƏSDİRİN, YETƏR! demək üçün. Qurban Məmmədovun düşük və düşkün tribunası, Sevinc Osmanqızının ingilisdilli əyalət tribunası, Tural Sadıqlının, Orduxan Temirxanın unitaz pəncərəsi, Qənimət Zahidin rəvayət quraşdırıb nağıl danışan həpənd çərçivəsi, Vidadi İsgəndərlinin tərbiyəsizlik və...və,.. başqaları da var, hamısı da zibilliklərdə. Onları hər yerdə işlədirlər, idarə olunurlar.

Bir daha təkrarlamaq istəyirəm: ölkənin taleyi xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxılmayıb, buraxılmayacaq da. Bunu Əli Kərimli, Sevinc Osmanqızı, Gültəkinq hacıbəyli, Cəmil Həsənli, Vidadi İskəndərov, Arif Məmmədov və bu kimi parazitlər anlamağa məcburdular.

### Sevinc Osmanqızı üçün bandit, xuliqan, vətənşüvən deyil...

Bu o S.Osmanqızıdır ki, kanalı "OsmanqızıTV"-də bütün günü bayrağını və şəhidinin qürurunu qoruyan azərbaycanlılara bandit deməklə içində Azərbaycana nifrət, azərbaycanlılara kin nə qədər olar?. Bir azərbaycanlı üçün onun torpağı, bayrağı müqəddəsdir, qeyrətdir, namusdur. Kiçik yaşlı azərbaycanlıdan tutmuş yaşlısına qədər hər kəs bayrağını daim əlində və başının üzərində tutar, himnini oxuyanda həyəcanlanar, qürrələnər.

Amma Ermənistan Tovuz rayonuna hücum edən gündən orduya, hakimiyyətə, xalqa xaincəsinə hücum edərkən Sevinc Osmanqızı, Qənimət Zahid, Tural Sadıqlı, Cəmil Həsənli, Əli Kərimli və digərləri xaricdə səfirliklərimizi, bayrağımızı, milli qürurunu müdafiə edən, Qarabağ deyib Orduya və dövlətə dəstəyini bildirən azərbaycanlılara xaincəsinə hücum edirlər.

"Təhlükə yoxdur, sivil mübarizə aparılmaqdadır, mən sizi inandırıram ki, heç erməni tərəfində belə bir niyyət yoxdur. Bu gün bu sivil mübarizəni pozan Azərbaycan tərəfidir. Rəsmi Bakıdır bu qarşıdurmanı təşkil edən... Erməni həmkarımla sualları cavablandırırdım... Azərbaycanlı gəncdir, müsahibə verir və deyir ki, əlimizdən gələn qədər vuruşduq, savaşdıq... Onlar Azərbaycanın imici üçün nəsə yaxşı bir iş görmüş olurlarmı? Baxın, adam deyir ki, əlimizdən gələn qədər vuruşduq, savaşdıq. Nədən ötrü vuruşdunuz və savaşdınız? Azərbaycanın imicinin xuliqan, bandit olduğunu təsbit etməkdən ötrümü savaşdınız? Siz nə qazandınız? Nəyə görə onlar səfirliyin müdafiəsinə qalxmalıdırlar? Mən davanın kimin başlatdığına girməyəcək. Əhəmiyyətli məsələ də deyildir. Bu, Azərbaycanın milli maraqlarının müdafiəsi demək deyildir. Qarabağ bura deyildir. Savaşlar Qarabağda gedir, savaş Azərbaycanla Ermənistan sərhəddində gedir. Siz Azərbaycan səfirliyini müdafiə etmək üçün ora getməyinizlə vətənə xidmət etmiş olmursunuz. Siz burada vətənpərvərlik görürsünüzmü? Vətənpərvərliyin "V" hərfini görürsünüzmü? Bu, şüvənlikdir, vətənşüvənlikdir..."

Bax, budur, Sevinc Osmanqızının əsl vətənşüvənliliyi!. Vətən naminə vuruşan insanlar nə zamandan bandit, xuliqan olur? Belə çıxır ki, sənin üçün şəhid anlayışı da yoxdur. Belə çıxır ki, sənə görə torpaq naminə şəhid olan igidlərimiz erməniyə güllə atdığına görə, xaricdə azərbaycanlılar bayrağını qoruduğuna görə banditdirlər, xuliqandırlar? Səni erməni qayğısı o qədər tükədib ki, içində Azərbaycana nifrət, azərbaycanlılara kin formalaşıb. Ona görə də, ermənilərin çirkin əməllərinə qarşı çıxanlara, bayrağını qoruyanlara vətənşüvən deyirsən...

Bəli, gördüyünüz kimi, ermənilər bizim içərimizdə Sevinc Osmanqızı kimi erməni süfrəsindən qidalananlarla nifaq salırlar.

Ancaq xalq hər şeyin qiymətini verəndir və söz də hər zamanki kimi xalqındır. Xalq görsün ki, açıq düşmənimiz ermənilərdirsə, içimizdəki ermənidən geri qalmayan düşmənlərimiz də Sevinc Osmanqızı, Qənimət Zahid, Tural Sadıqlı, Cəmil Həsənli, Əli Kərimli, cəbhəçilər və milli şuraçılardır. Onlara yerini göstərmək də xalqa düşər...

### Vətəni bir evə dəyişən müxalifətçi jurnalist...

Beləliklə, ən nifrət edici amil isə, S.Osmanqızı kimilər Vətəni bir evə dəyişən, atasının ruhuna hörmətsizlik edən, düşməni özünə dost hesab edən müxalifətçi jurnalistdən hansı sevgini gözləmək olar?.

### Novella Cəfəroğlu: "Millət Sevinc Osmanqızını bağışlasa, mən bu milləti bağışlamaram"

Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu bildirib ki, dövlətin çətin günündə bu cür mövqe sergiləmək xəyanətdir: "Mən Sevinc Osmanqızını çoxdan tanıyıram. Vaxtı ilə Azərbaycan müxalifətini söyürdü. Mən müxalifətin yerinə olsam, ona bir dəfə də açıqlama vermərəm. Bu gün ölkənin çətin günündə bu cür mövqedə olmaq millətə xəyanət kimi bir şeydir. Çox heyfislənirəm ki, onun atasının belə bir qızı var. Mən də bu dövləti quran insanlardan biriyəm. Bu mübarizə yolunda çiyin-çiyinə olmuşuq, döyülmüşük, söyülmüşük, həbsə atılmışıq. Amma biz Azərbaycanı atıb getməmişik. Hamı da yaxşı bilir ki, mənim ailəm İsraildədir. Gedib orada oturub mübarizə apara bilərdim. Burada qaldım, yaxşısı ilə, pisi ilə ölkəm üçün burada mübarizə apardım. Amerikada oturub Azərbaycanı söymək sənə nə verəcək?".

N.Cəfəroğlunun fikrincə S.Osmanqızı bu mövqeyinə görə həm cəmiyyət, həm də müxalifət tərəfindən qınanamalıdır: "Azərbaycan müxalifəti həmişə deyib ki, Qarabağ məsələsində hökumətin yanındadır. Bu məsələ də müxalifət ortaya mövqe qoymalıdır. Onun verilişinə çıxmamalı, açıqlama verməməlidir. 50 nəfər vətənpərvər azərbaycanlı minə yaxın erməninin qarşısına çıxıb. Amerika belə deyir ki, ermənilərin bu vəhşiliyi qəbulolunmazdır. Axı, sən də bu cür mövqe göstərməməlisən. 50 nəfər azərbaycanlının döyülməsini necə qəbul etmək olar? Sən necə deyə bilərsən ki, azərbaycanlılar bunu etməməli idi?

"Sumqayıt hadisələri" və Bakıda baş verən digər hadisələr rus kəşfiyyatının planları idi. Məqsəd də sovet hakimiyyətinin dağılması idi. Axı sən bir jurnalist kimi bunu bilirsən, bilməlisən. Bilmirsənsə, lap ayıb olsun. Sən bunları bilə-bilə insanları suçlayırsan. Əgər sən Azərbaycana qayıdanda bu millət səni bağışlasa, mən bu milləti bağışlamaram. Bu millət üçün, dövlət üçün can verimişik. Bu gün bizim ən ağır günümüzdür. Azərbaycan hökumətini sevməyə bilərsən. Bəli, ölkədə olan bəzi məsələlər bizim də xoşumuza gəlmir. Amma indi vəziyyət fərqlidir. Sevinc Osmanqızı axı dövlətə qarşı çıxır, bu milləti haqlı olduğu halda günahkar çıxarır. Nə qədər amansız insan olasan, ki bu mövqedə olasan və bu cür çıxış edəsən".

N.Cəfəroğlu onu da deyib ki, vaxtı ilə müxalifəti söyürdü, indi də müxalifət onu boykot etməlidir: "Mən heç vaxt Sevinc Osçanqızının bu ikiüzlülüyünə görə bağışlamıram".

Bir sözlə, xalqının, millətinin, vətəndaşının və dövlətinin güzəranının pisləşməsinə sevinənlərin, ondan öz məqsədləri, öz təbliğatları üçün istifadə edən Əli Kərimli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli, Cəmil həsənli, Qənimət Zahid, Vidadi İskəndərli və bu kimilərin bir adı ola bilər - Xalq düşmənləri!!!.. ".

Budur həqiqət. Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan bu satqın anti-milli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid edilməlidirlər!

**Rəfiqə HÜSEYNOVA**

# "Rusiyanınköməyi olmasa Ermənistan yaşaya bilməz"



"Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli iclasda videoformatda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bir mənalı şəkildə həm beynəlxalq təşkilatlara, həm də dünya birliyinin üzvlərinə çatdırdı: "Ermənistan -Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT-nin Təhlükəsizlik Şurasının qətnaməsi əsasında həll edilməlidir". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mayis Səfərli deyib.

Partiya sədrinin sözlərinə görə, Prezident qəsdən düşünülmüş şəkildə danışıqların formatını, eləcə də mahiyyətini pozan, ölkəmizin qarşısında cəfəng və qəbuledilməz şərtlər qoyan işğalçı dövlətin rəhbərlərinin bəyanatlarının, hərəkətlərinin sülh prosesinə ciddi zərbə olduğunu bildirdi: "BMT-ni,beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzündən çəkindirməyə çağırdı. Çünki Azərbaycan bundan sonra ermənilərin növbəti təxribatına dözmək fikrində deyil.

Hər kəs yaxşı bilir ki, Ermənistanın hərbi-siyasi liderlərinin başlarından böyük danışmaları, beynəlxalq qanunları, o cümlədən BMT TŞ-nin 4 qətnaməsini ayaqlar altına atması onların cəsarəti və ölkələrinin gücü ilə bağlı deyil. Ermənistan son dərəcə zəif iqtisadiyyata, çox kiçik resurslara malik ölkədir. Xaricdəki diasporun yardımları və Rusiyanın köməyi olmasa, bu dövlət yaşaya bilməz. Ermənilər cürət edib heç vaxt bizimlə təkbətək üz-üzə gəlmək iqtidarında deyil. Bunu İlham Əliyev də öz çıxışlarında vurğulayıb.

Ermənistan,əslində,müstəqill dövlət deyil, onun faktiki sahibi Rusiyadır. 200 il bundan əvvəl erməniləri coğragiyamıza yerləşdirən, tarixi torpaqlarımızda onlara dövlət quran Rusiya bu gün də onları fəal şəkildə dəstəkləyir. Vaxtilə xalqımızın cəlladı Qorbaçovun və onun komandası tərəfindən əsası qoyulan Qarabağ konfliktinin mövcudluğu indi də şimal qonşumuzun hərbi -sitası maraqlarına xidmət edir.

Azərbaycanın son aylardakı sərt mövqeyi, Ordumuzun qüdrətinin artması, Tovuz hadisələrində düşmənə vurduğu sarsıdıcı zərbələr, ölkəmizin beynəlxalq dəstəyi Ermənistanı və onun havadarlarını təlaşlandırmışdır. Onlar artıq yeni diplomatik gedişlər etməyə başlamışlar. Son günlər erməni mətbuatı Xarici işlər naziri Mnasakyanın danışıqlara hazır olduqları ilə bağlı bəyanatını dönə - dönə tirajlayır. Rusiyanın baş diplomatı S.Lavrov isə Azərbaycanın Milli Məclisinin sədri S.Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə ölkəsinin işğal olunmuş 5 rayonumuzun geri qaytarılmasına tərəfdar olduğunu bildirmişdir.

Azərbaycanlı parlamentarilərinin Lavrova hansı cavabı verdikləri barədə mətbuatda heç bir məlumata rast gəlmədim. Amma xalqımızın bu məsələdə mövqeyi qəti və birmənalıdır. BMT -nin 75 illiyinə həsr olunmuş videokonfrans formatındakı iclasda Prezident İlham Əliyev bir daha bu mövqeyi bütün dünyaya bəyan etdi :"Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır."

Göründüyü kimi,S.Lavrovun təklifi qətiyyən maraqlarımıza cavab vermir. Əvvəla, bu ideya indiyədək Madrid prinsipləri əsasında əldə edilmiş bəzi razılaşmalardan imtina etmək deməkdir. İkincisi, cəmi 5 rayonun qaytarılması münaqişənin bitməsi anlamına gəlmir. Yarımçıq həll variantı konfliktin daha da uzanması,istənilən an hərbi fazaya keçə bilməsi deməkdir. Yenə də regionda sülhün,əmin-amanlığın pozulma ehtimalı yüksək olacaqdır . Bir sözlə, istər Ermənistan, istərsə də onun sahibləri,gerçəkdən münaqişənin həllini istəyirlərsə, işğalçı hərbi qüvvələri dərhal torpaqlarımızdan geri çəkməlidirlər. Problem yalnız ölkəmizin ərazi bütövlüyü, suverenliyi, və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll olunmalıdır".

**Ceyhun Rasimoğlu**

# Qadınların cinsi istismarı problemi: kim, kimi, niyə, harda, necə...?



### Ekspertlər problemin səbəblərini və çıxış yollarını nədə görürlər?

Qadınların cinsi zorakılığa və insan alveri obyektinə çevrilməsi problemi son illərdə bütün dünyada aktual məsələlərdən birinə çevrilib. BMT-nin hesablamaları göstərir ki, dünyada hər 3 qadından biri fiziki zorakılığa məruz qalır. Azərbaycanda da belə hallara rast gəlinir. Ölkə qanunvericiliyində gender bərabərliyinin təsbit olunmasına baxmayaraq, qadınlara qarşı zorakılıq, bəzi sahələrdə cinsi ayrı-seçkilik, onların alver predmetinə çevrilməsi tendensiyası narahatlıq yaradır. Bu yazımızda problemin yaranma səbəbləri, nəticələri və çıxış yollarına aydınlıq gətirməyə çalışacağıq.

### “Məni dayəlik adı ilə apardılar, fahişəliyə məcbur etdilər....”

Araşdırmalar göstərir ki, hər il Azərbaycandan Türkiyə, Səudiyyə Ərəbistanı, BƏƏ və s. ölkələrə əxlaqsızlıq 1000-dən çox qadın aparılır. Qadınların demək olar ki, yarıdan çoxu işləmək və işlə təmin ediləcəyi barədə vədlərə inanaraq könüllü gedirlər. Həmin ölkəyə çatandan sonra isə, şəxsiyyətlərini təsdiq edən sənədləri əllərindən alınır və məcburən fahişəliyə cəb edilirlər.

Ölkəmizdən qadınlarını əsasən, bu ölkələrdə yüksək əməkhaqqı müqabilində dayəlik işi vədi etməklə aparırlar. Yazımızın qəhrəmanı, Bakı şəhər sakini, 1982-ci il təvəllüdlü, orta ixtisas təhsilli Aytən də ölkəni bu ümidlə tərk edibmiş. Ailədə zorakılıq və basqı nəticəsində əyalət şəhərlərinin birindən Bakıya qaçıb, burda iş tapa bilməyəndə isə təsadüfən tanış olduğu bir qadının Türkiyədə uşaq baxıcılığı təklifini qəbul edib.

Onunla bərabər daha 11 qadını da Türkiyəyə aparıblar. Qadınlar yalnız İzmirə çatdıqdan sonra real vəziyyətdən xəbərdar olublar. Amma artıq iş-işdən keçibmiş. Onların sənədləri əllərindən alınıb, cinsi istismara məruz qalıblar.

Gündə ən azı 9-10 dəfə cinsi əlaqəyə məcbur edildiyini deyən Aytən qaçmaq üçün çox yola əl atdığını deyir: “Orda bizim kimi qadınlar çoxdur. Savadsızlığımızdan istifadə edib bizə sənəd imzalatmışdılar ki, guya öz istəyimizlə bu işi görürük və avans olaraq 10 min dollar da pul almışıq. Hər dəfə qaçmaq cəhdlərim uğursuzluqla nəticələnirdi, əvəzində möhkəm döyülürdüm. Axır ki, bir dəfə alındı. Mənim kimi zorla bədənlərini satdıqları 2 azərbaycanlı qızla yaxınlıqdakı polis idarəsinə qaça bildik. Bizi müfahizə altına aldılar, sonra Azərbaycana göndərdilər”.

Sosioloq: “Qız tələb olunur”




elanlarının məqsədi başqadır

Qadınların cinsi istismara məruz qalması təkcə iş vədi ilə xaricə aparılma ilə məhdudlaşmır, ölkəmizdə də bu proses həyata keçirilir. “Sağlam Cəmiyyət” İctimai Birliyinin (SCİB) sədri, sosioloq Lalə Mehralının fikrincə, “Qız tələb olunur” elanlarının əsas məqsədi məlumdur: “Küçədə, meydanlarda, nəqliyyatda tez-tez rast gəldiyimiz, müxtəlif sahələrdə iş yerlərinin təklif olunduğu elanların böyük əksəriyyətində bir şərt qoyulur- gənc qızlar tələb olunur. Aydın məsələdir ki, belə elanlarla işəgötürən işçinin bacarığına deyil, başqa kriteriyalarına görə qiymət verir. Əlbəttə, istisnalar var, bəzi işlərə məhz qızlar, qadınlar daha uyğundur, lakin əksəriyyətində başqa məqsədlər güdülür.

Faktlar göstərir ki, əsasən, firma və şirkətlərdə, mağaza, kafe, sauna, restoran və s bu kimi müəssisələrdə bu hallara çox rast gəlinir. İşlə bağlı müraciət edən qadınlar müəssisə rəhbərləri tərəfindən müxtəlif yollarla cinsi istismara təhrik edilir. Təşkilatımızın araşdırmalarına görə, qadınların cinsi istismara təhrik olunduğu iş yerləri sırasında hətta telekanallar da var”.

SCİB sədri deyir ki, bir sıra Avropa ölkələrində qadınları qazanc məqsədi ilə fahişəliyə cəlb etməyə cəhd edən şəxslər cinayət məsuliyyətinə cəlb edilir: “İş yerində qadına belə təklif olunursa, o, müvafiq orqana müraciət edə bilir. Fakt sübut olunsa, qarşı tərəf məsuliyyətə cəlb edilir və müəyyən edilmiş qədər həbs cəzası alır. Bu üsul Azərbaycan üçün də çox effektli ola bilər”.

Problemin həllinə gəlincə, sosioloq hesab edir ki, həm qeyri-hökumət təşkilatları, həm də dövlət strukturları tərəfindən müxtəlif mübarizə üsulları həyata keçirilməlidir. “Adətən, bu problemin kökündə mənəvi dəyərlərin aşınması, işsizlik, maaşların az olması, erkən nigah, ailə zorakılığı, boşanmalar kimi faktorlar durur. Bundan başqa, təhsilin və hüquqi maarifləndirmənin aşağı olmasıdı səbəblər arasındadır”.

### Psixoloq: “Əsas səbəb sosial yox, mənəvi-psixoloji problemlərdir”

Son araşdırmalara görə, boşanmaların, tənha qadınların sayında ciddi artım müşahidə olunur. Paralel olaraq, fahişəliklə məşğul olan qadınların da sayı artır. Bunun səbəblərini isə mütəxəssislər bir neçə faktorla bağlayırlar.

Psixoloq Arzu Qarayeva hesab edir ki, burada əsas səbəb sosial problemlər yox, mənəvi-psixoloji problemlərdir: “Televiziyalarda, internetdə müasirlik adı altında mənəvi dəyərlərə zidd həyat tərzinin təbliği gənclərin tərbiyəsinə ciddi zərər vurur. Onlara maddi dəyərlərin mənəvi dəyərlərdən üstün olması fikri aşılanır. Pulla hər şeyin satın alına biləcəyi, xoşbəxt olmaq üçün yalnız pulun vacibliyi təbliğ olunur, ailə dəyərləri geridəqalmışlıq əlaməti kimi lağa qoyulur. Seriallarda, filmlərdə, şou proqramlarda onlara belə edənlərin zəngin həyatı göstərilir, şüuraltına belə olmağın vacibliyi haqda subliminal mesajlar verilir. Asan qazanc əldə etməyin daha üstün olduğu, əməklə, yaradıcılıqla yaşamağın əziyyətli olduğunu açıqca deyirlər. Bu işlə xüsusi mərkəzlər məşğul olur”.

Psixoloq digər faktorların da rolunu qeyd edib: “Düzdür, burada sosial problemlərin də müəyyən payı vardır. Təhsili və peşə təcrübəsi olmayan qadın özünün minimum ehtiyaclarını təmin edəcək əməkhaqqı müqabilində iş tapa bilməyəndə, başqa yollara əl atmağa məcbur olur ki, nəticədə insan alveri ilə məşğul olan insanların təsir dairəsinə düşür. Nəticədə, onlar ya məcburi fahişəliklə, ya da könüllü olaraq, qazanc xatirinə bu işlə məşğul olur”.

Arzu Qarayevanın fikrincə, fahişəliyə aparan yolun başlanğıcında əsasən 2 səbəb durur- biri sosial problemlər, xüsusilə də işsizlik problemi, digəri isə mənəvi deqradasiya- amma ikincinin payı digəri ilə müqayisədə dəfələrlə çoxdur. Zamanla sosial problemlər həllini tapsa və qadınlar işlə təmin olunsa da, ikinci səbəbin aradan qaldırılması mümkün olmur, əksinə, milli-mənəvi dəyərlər getdikcə daha arxa pana atılır.

### Statistika bu sahədə vəziyyəti necə göstərir?

Dövlət Statistika Komitəsindən əldə etdiyimiz məlumata görə, ölkəmizdə əhalinin 49%-ni kişilər, 51%-ni qadınlar təşkil edir. Ölkəmizdə qadınlar rəhbər vəzifələrdə çox az təmsil olunsalar da, bəzi sahələrdə- məsələn humanitar iş sahələrində üstünlük təşkil edirlər. Məsələn, təhsil sistemində- təxminən 70-80%, səhiyyədə- 60-70%, ticarət və xidmət müəssisələrində- təxminən 80%. Lakin digər sahələrdə qadınların çalışması faizi çox aşağıdır.

Yüksək dövlət vəzifələrində də qadınlar yox dərəcəsindədir. Azərbaycanda qadın nazir yoxdur, lakin qonşu İranda 4 qadın nazir vəzifəsində çalışır. Ölkə əhalisinin 51 faizini qadınlar təşkil etsə də, Azərbaycan parlamenti üzvlərinin cəmi 16 faizini qadınlar təşkil edir.

Statistikaya görə, son illərdə xarici ölkələrdəki azərbaycanlı miqrantlar arasında qadınların xüsusi çəkisi artır. Onlar bir çoxu iş tapmaq ümidilə başqa ölkələrə gedirlər. Bir qisim gənc xanımlar yaxşı perspektiv üçün təhsilini xaricdə davam etdirməyə çalışır. İş tapmaq istəyilə miqrasya edən qadınlar ən çox Rusiyanı və Avropa ölkələrini, fahişəliklə qazanc əldə etmək istəyənlər isə Türkiyə və ərəb ölkələrini seçirlər.

Xarici ölkələrdə fahişəliklə məşğul olan azərbaycanlı qadınların sayı da artır. Təəssüfedici haldır ki, indi xaricə getməyə çalışan azərbaycanlı qadınlar arasında 15-28 yaş qrupuna daxil olan qızlarımız üstünlük təkil edir.

### Qanunlar mükəmməldirmi və nəyi dəyişmək lazımdır?

Cinayət Məcəlləsinin 150, 151, 171, 173, 243-cü maddələrində insan alverinin müxtəlif formalarında təzahür edən fahişəliyə cəlb etmə, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcbur etmə, yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız hərəkətlərə cəlb etmə, yetkinlik yaşına çatmayanın alqı-satqısı və s. cinayət əməllərinə görə bir neçə müstəqil normalarda cinayət məsuliyyəti nəzərdə tutulub.

Maddə 108-də isə konkret olaraq cinsi zorakılıq haqqında bənd var- şəxslərə qarşı zorlama, fahişəliyə məcbur etmə, məcburi sterilizasiya və ya cinsi zorakılıqla əlaqədar digər hərəkətlər- 10 ildən 15 beş ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılmalıdır.

Cinayət Məcəlləsinin 151-ci maddəsində cinsi istismara təhrik edilən qadının məhkəməyə müraciət edə bilməsi haqda bənd var. Ancaq məhkəmələr əksər halda qarşı tərəfi cərimə etməklə kifayətlənir.

Burada cəmiyyətdə rüsvay olmamaq üçün imtinalar da xüsusi rol oynayır. Ona görə də, əksər qadınlar məhkəməyə müraciət etmirlər.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

***Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb.***

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 sentyabr




## "Bavariya" UEFA Super Kubokunu qazanıb




***UEFA Super Kubokunun yeni sahibi müəyyənləşib. Belə ki, sayca 45-ci Super Kubok uğrunda oyunda UEFA Çempionlar Liqasında 2019-2020-ci il mövsümünün qalibi Almaniyanın "Bavariya" klubu ilə UEFA Avropa Liqasını qazanmış İspaniyanın "Sevilya" komandası üz-üzə gəlib.***

Macarıstanın paytaxtı Budapeştdəki "Ferents Puşkaş" stadionunda keçirilmiş görüşdə "Bavariya" əlavə vaxtda qələbə qazanıb - 2:1. İngiltərəli referi Entoni Teylorun idarə etdiyi görüşün əsas vaxtı 1:1 hesablı heç-heçə ilə nəticələnib. Hesabı 13-cü dəqiqədə "Sevilya"nın futbolçusu Lukas Okampos penalti ilə açıb. Matçın 34-cü dəqiqəsində Leon Qoretska bərabərlik qolunu vurub. Əlavə vaxtda "Bavariya" qələbə topuna imza atıb. Qarşılaşmanın 104-cü dəqiqəsində vurulmuş qolun müəllifi Xavi Martines olub.

Pandemiya dövründə ilk dəfə avrokubok matçı azarkeşlərin iştirakı ilə keçirilib. "Bavariya" tarixində ikinci dəfə UEFA Super Kubokuna yiyələnib. Münhen komandası ilk dəfə bu titula 2013-cü ildə sahib olub. Super Kuboka cəmi bir dəfə yiyələnmiş "Sevilya" isə beşinci dəfə həlledici görüşdə uduzub.

Ümumiyyətlə, Super Kuboku indiyədək ən çox İtaliya "Milan"ı və İspaniya "Barselona"sı qazanıb - hərəyə 5 dəfə. Kataloniyalılar 4, "qırmızı-qaralar" isə 2 dəfə həlledici oyunda uduzublar. Titul uğrunda ötən 11 matçın 9-da İspaniya klubları (Barselona 5 dəfə, Atletiko və Real Madrid 3 dəfə) qələbəni bayram ediblər.

## "Qarabağ"- "Legiya" oyununu almaniyalı hakimlər idarə edəcək



Ağdamın "Qarabağ" klubunun UEFA Avropa Liqasının pley-off mərhələsindəki matçına hakim təyinatları açıqlanıb. AZƏRTAC xəbər verir ki, Ağdam təmsilçisinin Polşanın "Legiya" klubu ilə keçirəcəyi görüşü Almaniyadan olan hakimlər briqadası idarə edəcək.

Baş hakim Tobias Stielerə yan xətt hakimləri Kristian Qittelmann və Rafael Foltin kömək edəcəklər. Dördüncü hakim funksiyasını Daniel Şlager yerinə yetirəcək. Qeyd edək ki, oktyabrın 1-də Polşadakı "Voyska Polskoqo" stadionunda keçiriləcək qarşılaşma Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

## Bu gün bəzi bölgələrdə 33 dərəcə isti olacaq



Azərbaycanda sentyabrın 26-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 18-21°, gündüz 25-29° isti, Bakıda gecə 19-21°, gündüz 27-29° isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-45 faiz təşkil edəcək.

Sentyabrın 26-da Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 28-33°, dağlarda gecə 9-14°, gündüz 15-19° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 26-da Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

## Alimlər: Beyin hərfləri kor-koranə görə bilər



**Kor insanların əksəriyyətində görmə qabiliyyətinin itməsi ya gözdəki, ya da görmə sinirindəki problemlə əlaqədardır. Yəni, beyin qaydasında olur və hansısa siqnalları qəbul edə bilər.**

**"Nauka i jizn" saytının yazdığına görə, neyrobioloqların fikrincə, elektrod implantların köməyilə görmə nahiyəsini bilavasitə stimullaşdırmaq olar və kor adam da nəyisə görə bilər. Bu yolla mürəkkəb peyzajı modelləşdirmək çətin olsa da, hərfləri modelləşdirmək tam mümkündür. Aparılan eksperimentlərdə yanaşma adətən belə olub: hər elektrod vahid piksel rolunu oynaya bilər, beyin qabığına implant edilmiş elektrod-piksellər kompleksi isə hərfin təsvirini yaratmalıdır. Eksperiment zamanı elektrodların hamısı bir yerdə işə salınıb və nəticədə beyin hərfi deyil, aydın olmayan təsviri görüb.**

**Beylor Universitetindən olan tədqiqatçılar isə məsələyə başqa cür yanaşıblar: elektrodları eyni vaxtda deyil, bir-birinin ardınca (şəkil çəkirmiş kimi) işə salıblar və beyinin görmə nahiyəsində sanki hərfin şəkli tədricən çəkilib. Eksperimentdə iştirak edən kor adamlar davamlı elektrod siqnalların köməyilə beyində hiss etdikləri fiquru sensor ekranda barmaqları ilə çəkə biliblər. Yəni davamlı elektrod siqnalları beyində hər hansı fiquru "görməyə" kömək edib. Təcrübədə sadə simvollardan, C, W və U kimi hərflərdən istifadə edilsə də, alimlərin fikrincə, beyinə daha mürəkkəb təsvirləri ötürmək mümkündür.**

## Avtomobildən pul və qızıl-zinət əşyaları oğurlandı



Bakı şəhər sakini R.Piriyevə məxsus avtomobil ehtiyat hissələrini və pulqabısını oğurlamaqda şübhəli bilinən N.Şahverdiyev saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Xətai RPİ 37-ci PŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini R.Piriyevin 550 manat dəyərində avtomobil ehtiyat hissələrini, içərisində 1300 manat və qızıl-zinət əşyası olan pulqabısını oğurlamaqda şübhəli bilinən paytaxt sakini N.Şahverdiyev saxlanılıb.

## 68 yaşlı kişi intihar edib



Bakıda 68 yaşlı kişi özünü öldürüb. SİA xəbər verir ki, hadisə dünən Yasamal rayonu, Zahid Xəlilov küçəsində yerləşən yaşayış binalarının birində baş verib. Rayon sakini, 1952-ci il təvəllüdlü Ənvər Eynulov yaşadığı mənzildə özünü asaraq intihar edib. Onun onkoloji xəstə olduğu bildirilir. Faktla bağlı araşdırma aparılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600